AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 12 (1412), 12 - 18 mart 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*

## 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, Azərbaycan Respublikasında keçiriləcək 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2019-cu il martın 15-dən mayın 15-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.2. Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı;

2.3. 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışına bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısına uyğun olaraq əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə "Formula One Management Limited" şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2019 Formula 1 Azərbaycan Qran-Pri yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 5 mart 2019-cu il.*

## UEFA Avropa Liqasının final oyununun 2019-cu ildə Bakı şəhərində təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki, UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2019-cu il mayın 15-dən iyunun 1-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəsmi dəvət məktubu;

2.2. Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən sənəd;

2.3. UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyununa bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısına uyğun olaraq əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə UEFA-ya və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə UEFA Avropa Liqasının 2019-cu ildə Bakı şəhərində keçiriləcək final oyunu ilə əlaqədar Azərbaycan Respublikasına gələn şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 11 mart 2019-cu il.*

## *Bakı idman gimnastikası üzrə Dünya kuboku yarışlarına hazırlaşır*

Azərbaycan Gimnastika Federasiyası martın 14-17-də kişi və qadın idman gimnastikası üzrə Beynəlxalq Gimnastika Federasiyasının (FIG) Dünya kuboku yarışlarına ev sahibliyi edəcək.

Milli Gimnastika Arenasında keçiriləcək turnir Tokio-2020 Yay Olimpiya Oyunlarında iştirak etmək istəyən idmançılar üçün mühüm keçid rolunu oynayacaq.

Olimpiadaya təsnifat xarakterli bu yarışda iştirak etmək üçün 42 ölkə artıq qeydiyyatdan keçib. Medallar və lisenziya xalları uğrunda isə 121 kişi və 49 qadın idman gimnastının mübarizə aparacağı gözlənilir. Turnirdə çox sayda Olimpiya mükafatçısı, dünya və Avropa çempionatının medalçısı mübarizə aparacaq.

Dörd günlük yarışların ilk iki günü təsnifat, sonrakı iki günü isə final mərhələləri baş tutacaq.

Turnirdə, həmçinin ən yüksək icra xalını toplamış gimnastlara ənənəvi "AGF Trophy" kuboku da təqdim olunacaq.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## İdmançı gənclərin mütaliəyə marağı böyükdür

**Səh. 3**




## Olimpizm

### II Avropa Oyunlarının yayım məsələsi müzakirə olunub

İkinci Avropa Oyunlarının daxili yayımçısı olan İspaniyanın İSB şirkətinin nümayəndə heyəti Minskə səfər edib.



Səfərin məqsədi "Dinamo" stadionunda keçiriləcək rəsmi açılış mərasimində yayım məsələlərinin müzakirəsi olub.

Səfər çərçivəsində Oyunların açılış mərasiminə hazırlıqla bağlı vəziyyət öyrənilib, bir sıra məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Həmçinin-Oyunlar zamanı televiziya verilişlərinin təşkili ilə bağlı brifinq təşkil edilib, televiziya hüquqlarının satışı məsələləri, yayımın detalları və müvafiq infrastruktur obyektlərinin hazırlığı müzakirə edilib.

### Tailand ağırlıqqaldıranları Olimpiya Oyunlarında iştirak etməyəcəklər

Tailand Ağır Atletika Federasiyası 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarında iştirakdan imtina edib. Buna həmin idman növündəki çoxsaylı dopinq qalmaqalları səbəb olub.

Son aylarda Tailandın ağırlıqqaldırma üzrə 8 idmançısının dopinq testi müsbət nəticə verib. Olimpiya Oyunlarında iştirak etmədiklərini açıqlayan asiyalılar bir müddət əvvəl eyni səbəbdən Beynəlxalq Ağır Atletika Federasiyasının bayrağı altında keçirilən bütün yarışlarda təmsil olunmayacaqlarını da bəyan ediblər. Qeyd edək ki, Tokio-2020 Yay Olimpiya Oyunları ağırlıqqaldırma üzrə yarışların keçirildiyi sonuncu idman tədbiri ola bilər. Olimpiada proqramından çıxarılması gündəmdə olan bu idman növünün Paris-2024 Olimpiadasının proqramında olub-olmayacağı hələ ki, sual altındadır.

# Əsaslı təmirdən sonra idman zallarına baxış keçirilib

Martın 11-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (ADBTİA) əsaslı təmirdən sonra basketbol, voleybol, həndbol, ağırlıqqaldırma və boks idman zallarına baxış keçirilib. Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, MOK-un baş katibinin müavini Azər Əliyev, Azərbaycan Basketbol Federasiyasının prezidenti Nadir Nəsibov, ABŞ səfirliyinin və idman ictimaiyyətinin nümayəndələri, xarici ekspertlər iştirak ediblər. Tədbir iştirakçıları ADBTİA-da aparılan yenidənqurma və təmir işləri, elmi-tədris bazası haqqında ətraflı məlumat alıb, təmirdən sonra istifadəyə verilən basketbol, voleybol, həndbol, ağırlıqqaldırma və boks idman zalları ilə yaxından tanış olublar. Qonaqlar basketbol və voleybol zallarında yığma komandaların, həndbol, ağırlıqqaldırma və boks zallarında isə ADBTİA-nın tələbələrinin nümunəvi çıxışlarını izləyiblər.





Tədbir iştirakçıları, həmçinin Akademiyada tədrisi ingilis dilində aparılan "İdman jurnalistikası" və "İdman tibbi və reabilitasiya" magistr ixtisaslarının tədrisi üçün tikilən Multimedia Mərkəzi və Elmi-Tədris Laboratoriyası ilə da tanış olub, dərs prosesini izləyiblər.

Tədbir Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının basketbol zalında rəsmi hissə ilə başa çatıb. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyev qonaqları salamlayıb, daimi dəstəyə görə Gənclər və İdman Nazirliyinə və idmansevərlərə Akademiya adından minnətdarlığını bildirib. Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, ABŞ-ın Azərbaycandakı səfirliyinin nümayəndəsi Heidi Smith, Carnegie Universitetinin nümayəndəsi Matt Newby və Basketbol üzrə milli komandanın üzvü Amil Həmzəyev çıxış ediblər.



## Çingiz Hüseynzadə:

## "Biz sübut etdik ki, Azərbaycanda atletika məktəbi var"

Milli Olimpiya Komitəsində (MOK) Şotlandiyanın Qlazqo şəhərində keçirilən atletika üzrə Avropa çempionatında qızıl medala layiq görülən Nazim Babayevlə görüş keçirilib.

Tədbirdə MOK-un vitse-prezidenti, Azərbaycan Atletika Federasiyasının (AAF) prezidenti Çingiz Hüseynzadə, vitse-prezident Firat Hüseynov, qurumun baş katibi Məhərrəm Sultanzadə, baş məşqçi Bəhruz Salehli, idmançının şəxsi məşqçisi Ziyad Xəlifəyev və KİV nümayəndələri iştirak ediblər.

Tədbirdə Çingiz Hüseynzadə Nazim Babayevin ölkənin idman tarixinə düşən böyük uğura imza atdığını bildirərək deyib: "Nazim Babayevin bu uğuru tarixi nəticədir. Nazimlə baş nazirin müavini Yaqub Eyyubovun qəbulunda olduq. Yaqub müəllim Nazimi təbrik edərək, ona bundan sonrakı karyerasında uğurlar arzuladı. Əvvəllər deyirdilər ki, atletika Azərbaycan üçün deyil. Biz isə sübut etdik ki, Azərbaycanda atletika məktəbi var, özümüz də səviyyəli idmançılar yetişdirə bilərik. Nazim elə yaşdadır ki, bundan sonra 3 olimpiadada çıxış edə bilər. Biz Aleksis Kopellonu gətirəndə çoxları deyirdi ki, niyə legioner gətirirsiniz? Açığı, Kopellonun olması Nazimi üzərində daha yaxşı çalışmağa məcbur etdi və o, IV İslam Həmrəyliyi Oyunlarında Kopellodan yüksək nəticə göstərdi".

6 yaşından Nazim Babayevin məşqçisi olan Ziyad Xəlifəyev uğura gedən yoldan danışıb. O, bildirib ki, final çox gərgin keçib: "Finalda Olimpiya, dünya, Avropa çempionları yarışırdı. Nazim verdiyim tapşırıqları düzgün yerinə yetirdi. Qürurverici haldır ki, 30 minlik arenada bayrağımız dalğalandı. Nazim U-20, U-23-də uğur qazanmışdı, indi də uğurunu davam etdirdi. Qarşıda bizi universiada və dünya çempionatı gözləyir".

Avropa çempionu Nazim Babayev özü də yarışa hazırlığın qələbədə böyük rolundan danışıb: "Yarışa psixoloji cəhətdən özümü yaxşı hazırlamışdım. Finala qalan idmançılar eyni hədəf üçün mübarizə aparırdılar. Bu səbəbdən məni gümüş medal belə qane etməyəcəkdi. İstəyim çempionluq idi və bunu bacardım. Artıq yalnız irəli baxmalıyam".

AAF-ın baş katibi Məhərrəm Sultanzadə də Nazim Babayevin uğurunu yüksək qiymətləndirib. O, bildirib ki, atletikada digər uğurlarımız olsa da, üçtəkanla tullanmada bu, yox idi: "Artıq bu növdə də Avropa çempionumuz var. Az öncə Balkan Oyunlarında da özünü yaxşı tərəfdən göstərdi. Bu səbəbdən ona böyük ümidimiz vardı. Sağ olsun, bunu bacardı. Yarışda yanımızda almanlar durmuşdu. Onlar buna inanmadı. Çempionatda 49 komanda arasında 1 qızılla 10-cu olduq".

Firat Hüseynov da bu uğura görə idmançını təbrik edib. Onun sözlərinə görə, bu uğur Nazim Babayevin gələcək perspektivindən xəbər verir.

Millinin baş məşqçisi Bəhruz Salehli bildirib ki, atletimiz yarışa yollanmazdan əvvəl qışda Avropa çempionu olacağına söz verib və bunu bacarıb: "Onun ayağında zədəsi vardı. Yarışa yollanmazdan əvvəl də dedi ki, hazıram və bacaracağam. Həmin vaxt yadına salmadıq ki, söz vermişdin. Amma bacardı. Onun gücü Olimpiada və dünya çempionatında da medal qazanmağa çatır".

Nazim Babayev yeniyetmələr, gənclərin ardından böyüklərdə qazandığı uğurun səbəbini açıqlayıb: "İki ildir böyüklərin yarışında mübarizə aparıram. Artıq zaman yetişmişdi. Məşqçim də demişdi ki, 17,30 m nəticə göstərə bilərsən. Cəmi 1 sm az oldu. Amma sonda çempionluqla yekunlaşdı".

Avropa çempionu səhvləri üzərində işləyəcəyini, daha da yaxşı nəticə göstərəcəyini və olimpiadada medal qazanmağa çalışacağına inam ifadə edib: "Portuqaliyalı rəqibim Nelson Evora Olimpiya çempionu olanda mən ona televizordan baxırdım. Məqsədim də Olimpiadaya 1 il öncədən lisenziya qazanmaqdır".

Qeyd edək ki, Nazim Babayev qalibi olduğu Avropa çempionatının final mərhələsində 17,29 m nəticə göstərməklə şəxsi rekordunu da yeniləyib.

## Yeni anlaşma memorandumu imzalanıb

Martın 11-də Azərbaycan Milli Paralimpiya Komitəsi (AMPK) və UNICEF arasında anlaşma memorandum imzalanıb.

Sənədi AMPK-nın prezidenti İlqar Rəhimov və UNICEF-in Azərbaycan üzrə nümayəndəliyinin rəhbəri Edvard Karvardin imzalayıblar.

Əməkdaşlığın məqsədi Azərbaycanda Uşaq Paralimpiya Hərəkatının daha da inkişaf etməsi və bununla da idmanın gücündən istifadə etməklə sağlamlıq imkanları məhdud olan uşaq və gənclərin reabilitasiyası, sağlam inkişafı və cəmiyyətə sosial inteqrasiyasına töhfə vermək
dir.

Əməkdaşlıq, həmçinin sağlamlıq imkanları məhdud olan uşaqların və yeniyetmələrin reabilitasiyası və cəmiyyətə inteqrasiyası, öz potensiallarına tam çatmaları üçün imkanlarının genişləndirilməsi, idman uğurları əldə etmək imkanı verilməsi, onların həvəsləndirilməsi, pozitiv münasibət göstərmək məqsədi ilə yerli icmalarda davamlı sosial dəyişikliklər əldə olunmasına töhfə verməyi əhatə edir.



Memoranduma əsasən, bundan sonra Uşaq Paralimpiya Hərəkatı tək paytaxt Bakını deyil, eyni zamanda regionları da əhatə edəcək.

## *Ağırlıqqaldıranlarımız Las-Veqasda uğurla yarışırlar*

ABŞ-ın Las-Veqas şəhərində yeniyetmə ağırlıqqaldıranlar arasında dünya birinciliyi keçirilir.



50 ölkənin 200-dən çox atletinin mübarizə apardığı yarışda Azərbaycan milli komandasının üzvləri də iştirak edirlər. Təmsilçilərimizdən Ömər Cavadov 55 kq çəki dərəcəsində qüvvəsini sınayıb. Atletimiz birdənqaldırma hərəkətində hər üç yanaşmasını uğurla yerinə yetirərək 96 kiloqram nəticə göstərib. O, bu hərəkətdə dünya birinciliyinin bürünc medalına sahib çıxıb. Bu, Azərbaycan yeniyetmələrinin dünya birinciliklərində 7 illik fasilədən sonra əldə etdiyi ilk medaldır. Sonuncu dəfə medal 2012-ci ildə Slovakiyanın Koşitse şəhərində keçirilən yarışda +94 kiloqram çəki dərəcəsində Azər Məmmədli tərəfindən əldə edilmişdi.

Ömər təkanla qaldırma hərəkətində nisbətən zəif çıxış edərək 115 kiloqramı başı üzərinə qaldırıb. O, bu hərəkətdə 9-cu yeri tutub.

İki hərəkətin cəmində 211 kiloqram (96+115) nəticə göstərən Ömər Cavadov yekun sıralamada 4-cü pillədə qərarlaşıb.

Yarışdan sonra Ömər Cavadov federasiyanın rəsmi saytına açıqlama verib. Gənc atletimiz deyib: "Uzun müddət idi Azərbaycan yeniyetmələr arasında dünya birinciliyində medal qazana bilmirdi. Şükürlər olsun ki, mən bu uğura nail ola bildim. Çətin oldu, amma yaxşı ki, bu bürünc medala sahib çıxdım. Əldə etdiyim qələbədə məşqçi və müəllimlərimin əməyi böyükdür. Qarşıdakı yarışlarda da Azərbaycanın bayrağını yüksəltməyə çalışacağam".

Yeniyetmə ağırlıqqaldıranlar arasında keçirilən dünya birinciliyi martın 16-dək davam edəcək.

Yeniyetmələr arasında Avropa birinciliyinin qalibi Rüstəm Qasımov (67 kq) birdənqaldırma hərəkətində hər üç yanaşmanı uğurla yerinə yetirib və 121 kiloqramlıq nəticə ilə üçüncü yeri tutaraq bürünc medala layiq görülüb. Atletimiz təkanla qaldırma hərəkətində 143 kiloqram nəticə göstərib. O, bu nəticə ilə yeddinci yeri tutub.

İki hərəkətin cəmində 264 kiloqram (121+143) nəticə göstərən R.Qasımov yekun sıralamada beşinci pillədə qərarlaşıb.

Qeyd edək ki, yarış çərçivəsində, həmçinin Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) Konqresi də keçirilib.

İclasda Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) nümayəndə heyəti də iştirak edib.

62 ölkədən 150-dək nümayəndənin iştirak etdiyi tədbirdə gündəlikdə duran məsələlər müzakirə olunub, hesabatlar dinlənilib, bir sıra qərarlar qəbul edilib. Bundan başqa, texniki, tibbi, məşq, tədris və digər sahələrdə yeniliklər təqdim edilib, müzakirələr aparılıb.

Tədbirdə AAAF-ı baş katib Rizvan Rəsulov və mətbuat xidmətinin rəhbəri Kənan Məstəliyev təmsil ediblər.

Azərbaycanın 23 yaşadək güləşçiləri Serbiyanın Novi Sad şəhərində keçirilən Avropa çempionatında iştirak ediblər.

Təmsilçilərimiz qitə yarışlarını 4 medalla başa vurublar. Güləş yığmamızın əldə etdiyi medallardan dördü də bürüncdür.

## Gənc güləşçilərimiz Avropa çempionatını 4 medalla başa vurublar

Beləliklə medalları komandamıza Davud İbrahimov (70 kq), Hacımurad Məhəmmədsəidov (86 kq), Əsgər Məmmədəliyev (61 kq) və Şamil Zubairov (91 kq) qazandırıblar.

* * *

Saxa Respublikasının paytaxtı Yakutskda gənc sərbəst güləşçilər arasında Roman Dmitriev memorialı təşkil edilib. Ənənəvi yarışda ölkəmizi gənclərdən ibarət yığmamızın məşqçisi Nazim Əlicanovun rəhbərliyi altında 5 güləşçi təmsil edib.

Onlardan Asxab Həmzətov (92 kq) gümüş, Abubakr Abakarov (79 kq) isə bürünc medal qazanıb.

## *Beynəlxalq turnirdə səkkiz medal*

Azərbaycanın taekvondo üzrə böyüklərdən ibarət yığma komandası Hollandiyanın Eyndhoven şəhərində təşkil olunan "Dutch Open" beynəlxalq turnirində uğurla çıxış edib. Yarışda milli komandamızın idmançıları səkkiz medala sahib olublar.

Sayca qırx altıncı olan "G1" kateqoriyalı turnirdə mübarizə aparan Cavad Ağayev (63 kq) və Fəridə Əzizova (67 kq) bütün rəqiblərinə qalib gələrək yarışda fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Taekvondoçularımızdan Qaşım Maqomedov (58 kq) və Radik İsayev (87 kq-dan yuxarı) isə yalnız finalda məğlub olaraq gümüş medal qazanıblar.

Digər təmsilçilərimiz Bəhruz Quluzadə (54 kq), Məhəmməd Məmmədov (68 kq), Ramin Əzizov və Payam Qobadi Oğaz (hər ikisi 87 kq) yarışı yarımfinal mərhələsində başa vuraraq bürünc medalla kifayətləniblər.



Beləliklə, Hollandiya açıq çempionatında aktivinə iki qızıl, iki gümüş və dörd bürünc medal əlavə edən millimiz Eyndhovendən birbaşa Belçikaya yollanacaq.

Komandamızın üzvləri Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Niyaməddin Paşayev və baş məşqçilər Reza Mehmandoust, eləcə də, Elnur Amanovun rəhbərliyi ilə martın 16-da Belçikanın Lommel şəhərində keçiriləcək "Belgian Open" turnirində də qüvvələrini sınayacaqlar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# İdmançı gənclərin mütaliəyə marağı böyükdür

***Kitabxanaların yaradılmasında zəmanəsinin ağıllı hökmdar və ziyalılarının xüsusi rolu olmuşdur. Belə ki, orta əsrlərdə Nəsrəddin Tusinin rəhbərlik etdiyi Marağa rəsədxanasında 1258-1261-ci illərdə fəaliyyət göstərmiş kitabxana Azərbaycanın məşhur elmi kitabxanalarından sayılırdı. Səfəvi hökmdarı I Şah İsmayıl tərəfindən yaradılmış Təbriz Saray Kitabxanasında Şərqin böyük klassiklərinin əsərləri mühafizə olunurdu.***

XXI əsrdə mədəniyyətə müasir baxışlar sistemi formalaşıb. Artıq keçid dövrünün çətinlikləri arxada qalıb. Son illər quruculuq sahəsində gələcəyin inkişaf yolunu işıqlandıran, onun inkişaf istiqamətini, məqsəd və vəzifələrini müəyyənləşdirən proqram xarakterli bir çox sənədlər qəbul edilib. Bu sənədlər içərisində 6 oktyabr 2008-ci il tarixdə Prezident İlham Əliyev tərəfindən imzalanan "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" olduqca böyük tarixi əhəmiyyət kəsb edən bir sənəddir.

İnsanların mütaliəyə marağını yönəltmək üçün Rumıniya hökuməti əhalinin kitab oxuması üçün maraqlı bir layihəyə imza atıb. Kluj-Napoka şəhər merinin yeni layihəsinə əsasən, yay mövsümündə nəqliyyatda kitab oxuyan sərnişinlərdən gediş haqqı alınmayacaq. Şəhərdə əhalinin kitaba olan marağını artırmaq təkcə bu təşəbbüslə bitmir. Çünki "Bookface" şirkəti də əhalini kitab oxumağa təşviq etmək üçün maraqlı addım atıb. Şirkətin şərtlərində bildirilir ki, "Facebook" hesabına kitabla çəkilmiş şəklini yerləşdirən hər bir sosial şəbəkə istifadəçisi ictimai iaşə obyektləri, kitab mağazaları və stomatoloji kabinetlərə güzəştlər əldə edəcək. Hər il aprelin 23-də Kluj-Napoke şəhərində Ümumdünya Kitab Günü keçirilir. Həmin gün əlində kitab olan hər bir şəxs Nəbatat bağını pulsuz ziyarət edə bilər.

Bu gün gənclik daha çox elektron kitablara üstünlük verir. Ona görə də kitabların, yazılı ədəbiyyatın təbliğata çox ehtiyacı var. Bu işə orta məktəbdən başlanmalıdır. Məsələn, Yaponiyada hər şagird həftədə bir dəfə kitabxanada olmalıdır. Bu, onun dərs balına təsir edir. Bu isə onların kitaba marağında rol oynayır.

## Kitab xalqın mənəvi sərvəti, onun tarixidir

Qeyd edək ki, kitabın oxunması üçün bizim ölkəmizdə də müxtəlif tədbirlər həyata keçirilir. Hazırda V Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının təşkili bu istiqamətdə atılan addımlardan biridir. Eləcə də, Təhsil Nazirliyinin bugünlərdə "Oxumağı vərdişə çevirək!" şüarı ilə keçirdiyi aksiya da maraqlıdır. "Bir vaxtlar kitab əlimizdən düşməzdi. Hara gedərdiksə, yanımızda mütləq oxumaq üçün kitab olardı"- fikirlərindən çıxış edərək cəmiyyətin diqqətini mütaliəyə yönəltmək məqsədi daşıyan aksiyaya dəstək olanlar çoxdur.

Bu gün, çox təəssüf ki, kitab oxumaq mədəniyyəti cavanlar arasında az müşahidə olunur və unudulmuşdur. Halbuki, bu gözəl əməlin çox sayda faydaları vardır ki, sizi onunla tanış edirik: kitab oxumaq insan ömrünü uzada bilər. 2016-cı ildə mütəxəssislər tərəfindən aparılan tədqiqat göstərmişdir ki, o kəslər ki, kitab oxumağı sevirlər, onlarda vaxtsız ölüm riski başqalarından 20 faiz daha azdır. Bu gün həkimlər və mütəxəssislər bu qənaətə gəliblər ki, kitab oxumaq insanın cismi və ruhi xəstəliklərinin əlamətlərini azaldar. Qorxu, yuxusuzluq, çəkinin artması və xəstəxanalarda yatmaqdan qaynaqlanan iztirabları rahatlıqla aradan qaldıra bilir. Yatmazdan əvvəl kitab oxumaq adəti insanın rahat yatmasına şərait yaradar. Əvvəl bir-iki səhifə oxumağa çalışın və sonrakı günlərdə bu adətin yarandığını hiss edəcəksiniz. Mütəxəssislər deyirlər ki, oxuduğunuz kitab kağızdan olmalıdır, elektronik kitablar olmamalıdır. Tədqiqatlar göstərir ki, uşaqlar öyrəndikləri sözlərin təqribən 15 faizini mütailə vasitəsi ilə əldə edərlər. O uşaqlar ki, daha çox mütailə edirlər, onların lüğət dairəsi də geniş olur (Tebyan). İnsan oxuduğu dastan və hekayələrdə həmin mövzuya qapılaraq, personajların yaşadıqlarını hiss edir, yaşayır. Ona görə də mütailə etmək başqaları ilə həmdərd olmaq hissini gücləndirir. Tədqiqatlar göstərir ki, çay içmək 54 faiz, piyada yerimək 42 faiz stressi azaldır. Ancaq kitab mütailə etmək isə stressi 68 faiz azalda bilir. Biz kitab oxuyan zaman müxtəlif təbəqələrə malik olan insanların hissləri ilə tanış oluruq. Bu da kitabın əlaqələrdə bizə çox yardım edər. Həmin təcrübəyə istinadən, cəmiyyətdə rahat şəkildə əlaqə qura bilərik.



Son illər ərzində bu sahədə bir sıra mühüm sənədlər qəbul edilib. Ölkə Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" sərəncamlarına əsasən ölkənin bütün kitabxanalarına latın qrafikası ilə çapdan çıxmış nəşrlər hədiyyə edilmişdir. Həmçinin "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", eləcə də, Bakı şəhəri və qəsəbələrinin sosial-iqtisadi inkişafı, rabitə və informasiya texnologiyalarının inkişafı, ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı ilə bağlı proqram sənədlərdə kitabxana-informasiya sahəsinin inkişafı və modernləşdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulub.

Ölkə başçısı tərəfindən "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiqi bu sahədə köklü dəyişikliklərin həyata keçirilməsinə səbəb olub. Proqramın reallaşdırılması üzrə Tədbirlər Planının", Kitabxanaların kompyuter və informasiya-proqram təminatı, respublika üzrə kompyuterləşdirilmiş kitabxana-informasiya şəbəkəsinin yaradılması və inkişafı" bölməsinə uyğun olaraq kitabxanaların informasiyalaşdırılması, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işi uğurla həyata keçirilir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasın İnformasiya Mərkəzi Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması işinin daha effektiv həyata keçirilməsində xüsusi səy göstərir. Hər bir ölkədə elmin, təhsilin, incəsənətin, idmanın, mədəniyyətin inkişafında və təbliğində kitabın rolu əvəzsizdir. Kitab xalqın mənəvi sərvətidir, onun tarixidir. Bu sərvəti gələcək nəsillər üçün qoruyub saxlayan, bəşəriyyətin sənəd yaddaşı sayılan kitabların və digər çap əsərlərinin, məlumat daşıyıcılarının istifadəsini təşkil edən, biliklərin yayılmasını həyata keçirən kitabxanalar insanların intellektual və peşə səviyyəsinin yüksəlməsində, elmin və texnikanın tərəqqisində müstəsna rol oynayır. Məşhur hind kitabxanaşünası S.R.Rapqanatan kitabxananı inkişaf edən orqanizm adlandırarak yazır ki, bir orqanizm kimi kitabxana daim inkişafda olmalı, kitabxana fondu aramsız olaraq yeni kitablarla zənginləşdirilməlidir. Kiçik su hövzələri, göllər ona tökülən çaylardan məhrum olduqda quruduğu kimi, hər hansı bir kitabxana da yeni kitablardan məhrum olarsa, öz elmi və mədəni əhəmiyyətini itirər. Kitabxanaların daim zənginləşməsinin mənəviyyatımızın yüksəlməsində böyük əhəmiyyətinə diqqət çəkən ümummilli lider Heydər Əliyev demişdir: "Kitabxana elə bir yerdir ki, gərək daim onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır. Bunlar insanlara yeni biliklər, yeni məlumat gətirir".

## Yenidən qurulan kitabxana

İdman Akademiyasının rektoru Fuad Hacıyevin daxili əmrinə əsasən, 2015-ci ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında kitabxana işini tənzimləmək, onların fəaliyyətini müasir tələblər səviyyəsinə çatdırmaq, ədəbiyyatın geniş təbliğini və bu sahədə xidmət işini genişləndirmək üçün bir sıra tədbirlər həyata keçirilmişdir. Belə tədbirlərdən biri də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kitabxanasının yenidən qurulması və burada elektron kitabxananın yaradılmasıdır.

Akademiyanın idman tarixi elmi mərkəzinin kitabxana fondu 2019-cu ildə (fevral ayına qədər) 207.519 nüsxə təşkil etmişdir. Həmçinin kitabxananın fondunda müxtəlif dillərdə olan nadir ədəbiyyat nümunələri saxlanılır. Fondda əsasən bədən tərbiyəsi və idman ədəbiyyatı üstünlük təşkil edir. Bununla yanaşı tibbə, iqtisadiyyata, siyasətə, hüquqa, fəlsəfəyə, statistikaya, tarixə, ədəbiyyatşünaslığa və dilçiliyə dair elmi ədəbiyyat, bədii ədəbiyyat da vardır. Dövri mətbuat fondundan kitabxanaya respublikamızda və digər ölkələrdə çap olunan 12-dən artıq qəzet, 4-dən yuxarı jurnal və digər dövri nəşrlər daxil olur. Kitabxanada fondun elektron nəşrlərlə komplektləşdirilməsi sahəsinə xüsusi diqqət yetirilir. Bu məqsədlə həm də kitabxanaya daxil olan nəşrlərin elektron versiyasının də mütləq şəkildə olması əsas götürülür. İstər hədiyyə kimi və istərsə də komplektləşdirmə yolu ilə kitabxanaya daxil olan nəşr növlərinin elektron versiyalarının imkan daxilində əldə edilməsi nəzərdə tutulub.

Bədən tərbiyəsi və idmanın təbliği ilə bağlı akademiyanın kitabxanasında həyata keçirdiyi tədbirlərdə başlıca məqsəd sağlam nəsil yetişdirməkdir. Bu zaman işin fiziki tərəfi ilə yanaşı mənəvi tərəfi də ön planda olmalıdır. Məlumdur ki, idmanla məşğul olanların böyük əksəriyyəti gənclərdir və bu sahədə böyük gənclik ordusu cəmləşmişdir. Deməli, idman cəmiyyətin ən aktiv təbəqəsi olan gəncləri öz ətrafına cəmləməklə pis vərdişlərə meyllənməyin qarşısını alır. İnternetin həyatımıza bu qədər sürətlə daxil olduğu, qloballaşmanın mənfi təsirlərindən qorunmağın bu qədər çətin olduğu bir zamanda idmanın təbliğ edilməsi çox aktualdır. Kitabxana işçiləri üçün önəmli məqamlardan biri tələbə-gənclərin uğurlarına, qələbələrinə sevinmək, onun təbliği sahəsində hər cür imkanlardan istifadə etməkdir. Tədbirlərin təşkilində Nərimanov rayonunda fəaliyyət göstərən dövlət orqanları, ictimai birliklər və müxtəlif qurumlar, idmanla bağlı idarə və təşkilatlarla akademiyanın kitabxana işçiləri sıx əlaqə saxlayır və öz köməklərini əsirgəmirlər.






## Akademiyanın tələbələri mütaliəyə həvəs göstərirlər

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının İdman tarixi elmi mərkəzi tərəfindən hazırlanmış kitabxananın elektron bazasında Heydər Əliyev irsinin tədqiqi, Azərbaycanda bədən tərbiyəsi və idman haqqında qanunlar, sərəncam və fərmanlar (1918-2018-cı illər), dövlət proqramı, idmanla bağlı rəsmi sənədlər, idmanın tarixi, Olimpiya, dünya və Avropa çempionları və mükafatçıları, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının yaranma tarixi, kitabxananın yaranma tarixi, şəhid idmançılar, milli qəhrəmanlar, generallar, filmlər, fotoqalereya xronoloji ardıcıllıq əsasında düzülmüşdür.

İdmanın təbliği, gənc nəslin sağlam gələcəyinin təmin edilməsi məqsədilə akademiyanın kitabxanasında kütləvi tədbirlərin müxtəlif formalarından istifadə edilir. Bundan başqa, hazırkı şəraitdə kitabxanaların çap imkanlarının həddindən artıq zəifliyi bir zamanda ayrı-ayrı görkəmli idmançıların yaradıcılığına, müxtəlif bədən tərbiyəsi və idmana aid ədəbiyyat nümunələrinə həsr olunmuş kiçik formatlı nəşrlər, kiçik tövsiyə biblioqrafik göstəriciləri, çap plakatları idmançıların nailiyyətləri haqqında soraq kitabçaları və s. hazırlamaq mümkun deyil. Ona görə də bədən tərbiyəsi və idmana aid ədəbiyyatın təbliği zamanı təsadüfi hallarda bu üsullara rast gəlmək olur.

Oxucularda vətənpərvərlik hisslərinin aşılanmasında, milli-mənəvi dəyərlərimizin qorunmasında mətbuatdan istifadə edərək bədən tərbiyəsi və idmana aid elmi əsərlərin təbliğat işini daim yaxşılaşdırmaq, onların hər bir oxucuya ən asan yolla çatmasına kömək etmək lazımdır. Bədən tərbiyəsi və idmana aid elmi əsərlərin, idman nailiyyətlərinin təbliğinin ən geniş yayılmış forması KİV-lərlə əlaqədir.

Akademiyanın kitabxanasında KİV-lər hər zaman oxucuların köməyinə çatır. Kitabxanaçı Zəminə Abbasova oxucularla fərdi iş aparırkən, kitabxananın işi haqqında məlumat verərkən və kitab tövsiyə edərkən özünün şifahi söhbətinə əlavə olaraq oxucuya çap materialı da təqdim edir. Mətbuatda dərc olunan məlumatlar həm kitabların əyani təbliğatı zamanı sərgiləri tamamlayır, həm də görkəmli idmançılara, Olimpiya çempion və mükafatçılarının həyatına həsr olunmuş gecələrin, idmana aid kitabların icmallarının təşkili zamanı kütləvi işdə istifadə edilir.

Bədən tərbiyəsi və idmanın təbliğində kütləvi tədbirlərin təsiri ilə kitabxanaya yeni-yeni oxucular cəlb edilir. Bu da bədən tərbiyəsi və idmanın təbliğində oxucu-kitabxana əlaqələrinin yüksək səviyyədə qurulması, istifadəçilərə keyfiyyətli xidmət göstərilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Hazırda kitabxanada 941 istifadəçi elektron formada qeydiyyatdadır. Çalışırıq ki, xidməti vəzifəmizi layiqincə yerinə yetirək, mədəniyyətimizin qorunması və nümayiş etdirilməsində səy və bacarığımızı əsirgəməyək. Ümummilli liderimiz Heydər Əliyevin söylədiyi kimi: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanalara daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir".

Əlbətdə bizim məqsədimiz tələbə gənclərin kitablara mütailəyə marağının artırılması, kitabın təbliğatı, onların təmənnasız olaraq kitab və elektron kitab vəsaitləri ilə təmin olunması, kitabxanaların elmi və mədəni irsinin toplanıb qorunması, "Səyyar Kitabxana"nın fəaliyyəti, elmi müəssisələr arasında əməkdaşlığı inkişaf etdirməkdir. Çalışırıq ki, akademiyanın kafedraları və ictimai təşkilatlarla kitabxananın fəaliyyətini əlaqələndirək, oxucularda vətənpərvərlik hisslərini tərbiyə edək. Fondlarda toplanmış elmi, mədəni, mənəvi irsi təbliğ etməklə, idmançı gənclərin informasiya tələbatının ədəbiyyatla təmin olunmasına yardımçı olaq.

**Dilqəm Quliyev**

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

## Komandamız Bosfor kubokunu 14 medalla başa vurub

İstanbulda 32-ci beynəlxalq Bosfor kuboku turniri keçirilib. Yarışda Azərbaycan karateçiləri də qüvvələrini sınayıblar. Təmsilçilərimiz turnirdə 14 medal qazanıblar. Fərdi kumite yarışlarında Vüsal Qəmbərov (30 kq), Məhəmməd Xamoyev (45 kq), Ramil Baxşəliyev (52 kq) və Hüseyn Məmmədli (61 kq) bütün rəqiblərini məğlub edərək turnirin qalibi adına layiq görülüblər.

Fərdi kumite yarışlarında komandamızın aktivinə gümüş medalları Rüstəm Rzayev (+45 kq), Kamil Kərimli (45 kq), Ayxan Allahverdiyev (52 kq), Rəsul Abbasov (45 kq), Osman Osmanlı (+76 kq) yazdırıblar. Bu yarışlarda Əli Ağayev (40 kq), Aysu Əliyeva (44 kq), Fərid Savadov (52 kq), Ruslan Qafarlı (57 kq) və Fərid Ağayev (76 kq) isə bürünc medallara sahib olublar.

Ənənəvi turnirdə 31 ölkədən 1299 karateçi iştirak edib.



## Sumoçumuz ümumdünya etno festivalında bürünc medal qazandı

Azərbaycan sumoçusu Camal Feyziyev Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda keçirilən ümumdünya etno festivalında bürünc medal qazanıb.

18 yaşlı idmançımız mas-reslinq üzrə mütləq dünya çempionatında fəxri kürsünün üçüncü pilləsinə yüksəlib. Çempionatda 42 ölkənin hər birindən bir idmançı iştirak edib. Camal Feyziyev 42 idmançı arasında ən gənc olmasına baxmayaraq, ilk görüşdə Polşa, sonra Danimarka, Kanada, Çexiya idmançıları üzərində qələbə qazanaraq yarımfinala vəsiqə qazanıb. Yarımfinalda isə idmançımız Ukrayna təmsilçisinə məğlub olub. Bürünc medal uğrunda yarışda isə Qırğızıstan idmançısına qalib gələn təmsilçimiz bürünc medala layiq görülüb. Yarışlarda 90 ölkədən 3 mindən çox idmançı iştirak edir. Çempionatda azərbaycanlı sumoçular mütləq çəki dərəcələrində mas-reslinq və ənənəvi güləş yarışlarında mübarizə aparırlar.

## İddiaçılar turnirinin mükafat fondu açıqlanıb

2020-ci ildə şahmat üzrə kişilər arasında keçiriləcək iddiaçılar turnirinin mükafat fondu 500 min avro təşkil edəcək.

Bu barədə FİDE-nin prezident şurasında qərar qəbul edilib.

Astanada keçirilən iclasda FİDE və dörd kontinental şahmat assosiasiyası arasında əməkdaşlıq müqavilələri imzalanıb. İclasda, həmçinin şahmatın inkişafı istiqamətində həyata keçirilən layihələrə dəstək üçün hər il 300 min avro vəsaitin ayrılması qərara alınıb. Şura üzvləri oyunların qaydaları və s. məsələlərlə bağlı xüsusi komissiyanın yaradılmasını təklif ediblər. Bu məsələlərin həllinə dair qərarlar sonrakı iclaslarda qəbul ediləcək.

Ötən il Berlində keçirilən iddiaçılar turnirinin mükafat fondu 420 min avro idi. Yarışların qalibi adına amerikalı qrossmeyster Fabiano Karuana layiq görülmüşdü.

* * *

Vüqar Həşimov Şahmat Akademiyasında beynəlxalq "Bahar" festivalı keçirilir.



Yarışda 70-dən çox şahmatçı mübarizə aparır. Yaş və dərəcə məhdudiyyətinin tətbiq edilmədiyi turnirdə şahmatçıların nəticələri beynəlxalq və milli reytinq siyahılarının hazırlanması üçün müvafiq olaraq, FİDE-yə və Azərbaycan Şahmat Federasiyasına göndəriləcək.

İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq turnirdə şahmatçılar 1-ci, 2-ci və 3-cü dərəcə normalarını da yığa biləcəklər.

Yarış martın 16-dək davam edəcək.



## "5 Mart - Bədən Tərbiyəsi və İdman günü" Sumqayıtda da qeyd olunub

Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində "5 Mart - Bədən Tərbiyəsi və İdman günü" münasibəti ilə şəhərin idman təşkilatlarının rəhbərləri, bədən tərbiyəsi və idman veteranları, Əməkdar məşqçilər, dünya və Avropa çempionatının mükafatçıları, baş məşqçilərin iştirakı ilə tədbir keçirilib.

Tədbir iştirakçıları ilk öncə ümummilli lider Heydər Əliyevin Sumqayıt şəhərindəki abidəsinin önünə gül dəstələri qoyublar. Əlamətdar gün münasibətilə Heydər Əliyev Mərkəzində iştirakçılar Gənclər Evinin uşaq və yeniyetmələrinin rəsmləri ilə tanış olublar.

Mərkəzin dəyirmi masa zalında davam edən tədbirdə çıxış edən Sumqayıt şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Elgün Hümbətov bayram münasibəti ilə iştirakçıları təbriklərini çatdırıb, dövlətin digər sahələrə olduğu kimi bədən tərbiyəsi və idman sahəsinə göstərdiyi diqqət və qayğıdan bəhs edib. Elgün müəllim çıxışında Azərbaycan idmançılarının əldə etdikləri nailiyyətlərin qazanılmasında Sumqayıt atletlərinin özünəməxsus payı olmasından danışıb.

"Əməkdar Bədən Tərbiyəsi və idman xadim"ləri Məmməd Eyvazov, Əhməddin Rəcəbli, Qərib Əliyev, cüdo üzrə iki qat paralimpiya çempionu İlham Zəkiyev və Azərbaycan Qol Güləşi Federasiyasının Sumqayıt şəhəri üzrə yerli nümayəndəsi Zöhrab Mənsimov Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, Sumqayıt Şəhər İcra Hakimiyyəti və adiyyatı üzrə idman federasiyaları tərəfindən bədən tərbiyəsi və idman sahəsində görülən məqsədyönlü işlərdən məmnunluqla danışıblar.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin birinci müavini Teymur Səmədov ölkədə aparılan möhtəşəm quruculuq işləri, möhkəm idman infrastrukturunun yaradılmasını qeyd edib. O, ölkə başçısının həyata keçirdiyi sosial yönümlü, iqtisadi əhəmiyyətli tədbirlər nəticəsində respublikamızın hər yerində olduğu kimi, qısa bir dövrdə Sumqayıt şəhərinin də sosial-iqtisadi və mədəni həyatında davamlı inkişafa nail olunması, burada Heydər Əliyev Mərkəzi, şahmat və uşaq İncəsənət məktəbləri, füsunkar Sumqayıt Bulvarının tikilərək sakinlərin istifadəsinə verilməsi haqqında geniş məlumat verib. Sonra Teymur Səmədov Olimpiya çempionu İlham Zəkiyevi ad günü və "Azərbaycan Respublikasının Əməkdar məşqçisi" fəxri adı alması münasibətilə təbrik edib. Sumqayıt şəhərində bədən tərbiyəsi və idmanın inkişafında səmərəli fəaliyyətinə görə bir qrup məşqçi-müəllimlər baş idarənin plaketi, rəsm sərgisinin iştirakçıları sertifikatlarla təltif ediliblər.

Bayram münasibəti ilə idmanın futbol, cüdo və sərbəst güləş növləri üzrə müxtəlif yaş qruplarında yarışlar keçirilib və bu yarışlara 500-ə yaxın iştirakçı cəlb olunub.

## Kikboksinq üzrə "Qarabağ Open" turniri keçiriləcək

Martın 29-da Azərbaycan Kikboksinq Federasiyasının "Ağdam" idman klubunun təşkilatçılığı ilə Aprel şəhidlərinin xatirəsinə həsr olunmuş "Qarabağ Open" turniri start götürəcək.

Ağdam Olimpiya Kompleksində təşkil olunacaq yarışda kadetlər, yeniyetmələr, gənclər və kişilər kateqoriyasında mübarizə aparılacaq.

Turnir martın 31-dək davam edəcək.

## V Azərbaycan çempionatı başa çatıb

Şağan İdman Olimpiya Kompleksində alpaqut Turan döyüş sənəti üzrə V Azərbaycan çempionatı keçirilib. Yarışın açılış mərasimində, əvvəlcə, Azərbaycanın dövlət himni səsləndirilib.

Azərbaycan Alpaqut Federasiyasının prezidenti Qüdrət Nuriyev, Gənclər və İdman Nazirliyinin nümayəndəsi Firudin Paşayev, Xəzər Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Əliyev, Beynəlxalq Turan Oyunları Komitəsinin sədri Fərid Əlizadə və alpaqut Turan döyüş sənətinin müəllifi Vasif Namazov çıxışlarında ölkəmizdə Olimpiya idman növləri ilə yanaşı, qeyri-Olimpiya idman növlərinin də inkişaf etdiyini vurğulayıblar. Qeyd edilib ki, alpaqut idman növü yeni yaranmasına baxmayaraq, ölkəmizdə onun qədim tarixi və zəngin ənənələri mövcuddur. Çıxışlarda alpaqutçuların əldə etdikləri nailiyyətlərin idmanın bu qədim növünün təbliği və inkişafı baxımından əhəmiyyəti xüsusi vurğulanıb.



Sonra yarışın qadın iştirakçıları 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə federasiya tərəfindən təltif edilib.

Ölkə çempionatında 40 komandanın tərkibində 400-dən çox idmançı mübarizə aparıb.

İki gün davam edən yarışda qaliblər diplom və medallarla təltif olunublar.

# Formula-1

## Dünya Avtomobil İdmanı Şurasının iclası keçirilib

Beynəlxalq Avtomobil Federasiyasının (FİA) Cenevrədəki mənzil-qərargahında federasiyanın prezidenti Jan Todt və idman direktoru Qrem Stokerin rəhbərliyi ilə Dünya Avtomobil İdmanı Şurasının iclası keçirilib.

İşçi qruplarının hazırladıqları bir neçə təklif Şura tərəfindən təsdiqlənib. Şura 2021-ci il mövsümü üçün Formula-1 reqlamentinin hazırlıqları çərçivəsində tender seriyalarının işə salınmasını xüsusilə bəyənib.

Bu il pilotların şlemlərinə videokameraların quraşdırılması ilə əlaqədar bütün seriyalara aid edilən yeni qaydalar qəbul olunub. Yürüşçülərin şlemi istehsalçı tərəfindən müəyyən edilən ilkin spesifikasiyaya tam müvafiq olmalıdır. Videokamera da daxil olmaqla, hər hansı aksesuardan istifadəyə yalnız FİA-nın icazəsi ilə yol verilir.

* * *

Böyük Britaniyanın "The Chemical Brothers" musiqi kollektivi özünün "We've Got to Try" kompozisiyasına videoklip çəkdirib.

"We've Got to Try" klipinin süjetinin mərkəzində olan "We've Got to Try" ləqəbli it Formula 1 bolidində idarə etməyi öyrənir. Daha sonra "We've Got to Try" kosmosa uçuşa göndərilir.

Videonu "The Chemical Brothers" qrupunun rəsmi "YouTube" kanalında izləmək mümkündür.



Formula-1 klipin anonsu qismində "We've Got to Try" remiksini yayıb. Bundan ötrü "The Chemical Brothers" qrupu mahnını 15 min bitədək tezləşdirib. Bu, Formula-1-in hazırkı turbomühərriklərinin dəqiqədə 15 min dövr etməsinə müvafiq olaraq həyata keçirilib. Formula-1-in mətbuat xidmətinin məlumatında qeyd edilir ki, alınan 3 saniyəlik mahnı "Formula-1-in irəli hərəkət edən yeni qlobal səs identikliyi, "We've Got to Try" mahnısının özü isə "Formula-1-in 2019-cu il mövsümünün səsi" olacaq.

* * *

"Pirelli" şirkəti Formula-1 Azərbaycan Qran-Prisində hansı şinlərdən istifadə ediləcəyini açıqlayıb.

Şirkət Bakıya sərt - C2, C3 və C4 tərkibli şinləri gətirəcək.

Cari ildə komandalar hər həftəsonu - sərt, orta və yumşaq kateqoriyalı şinlərdən istifadə edə biləcəklər. Sərtliyinə görə beş kateqoriyaya ayrılan şinlərdən yalnız üçündən istifadə etmək mümkündür. Şinlərin seçilməsi isə trekin xüsusiyyətindən asılıdır.

* * *

Formula-1 çempionatının Barselonada təşkil olunan İspaniya Qran-Prisinin keçirildiyi trasın prezidenti Vinçense Agilera qeyd edib ki, bu yaxınlarda trasla müqavilənin müddətinin uzadılması barədə danışıqlara başlanılacaq.

O, həmçinin avtodrom səhmdarlarının tələblərindən də danışıb.

"Biz rəhbərliklə ünsiyyət qururuq, lakin hələ ki, danışıqlar aparmırıq. Bu, yaxın vaxtlarda baş tutmalıdır. Mən nikbinliyə köklənmişəm. Çünki hamı razılığa gəlməkdə maraqlıdır. Səhmdarlar bir sıra şərtlər irəli sürüblər.

Bizim əsas məqsədimiz gəlirləri artırmaq və xərcləri azaltmaqdır. 2018-ci ildə bizim əhəmiyyətli dərəcədə itkilərimiz olub. Biz daha buna dözmək istəmirik. Danışıqlar mövsümün sonunda - təqvimin dərc edildiyi vaxt deyil, daha tez başa çatmalıdır", - deyə "Nextgen-Auto" Vinçense Agileradan sitat gətirir.

* * *

Formula-1 Azərbaycan Qran-Prisinə 50 gün qaldığı ərəfədə Filarmoniya tribunasına olan biletlər tamamilə satılıb.

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin kommersiya şöbəsinin rəhbəri Bülənt Özərdim biletlərin böyük hissəsinin satıldığını qeyd edib. Bildirib ki, indiyədək 52 ölkədən bilet alınıb və ümumilikdə biletlərin 70 faizə yaxını satılıb. Satılan biletlərin 78 faizi xarici ölkələrin payına düşür.

"Əvvəlki illərlə müqayisədə bu il Qərbi Avropa ölkələrindən, xüsusən də Böyük Britaniyadan bilet alanların sayında kəskin artım qeydə alınıb.

Həmçinin, ötən ilin eyni dövrü ilə müqayisədə biletlərin satış tempində 10 faizlik artım müşahidə olunur. Yaxın günlərdə konsert proqramlarının detalları açıqlandıqdan sonra bilet alışlarının daha da intensivləşəcəyi gözlənilir", - deyə B.Özərdim əlavə edib.

Qeyd edək ki, Formula-1 Azərbaycan Qran-Prisinə biletlərin satışı hazırda davam edir. Biletlər yerli sakinlərə orijinal qiymətindən 25 faiz ucuza təklif olunur. Yerli sakinlər kateqoriyasına şəxsiyyət vəsiqəsinə sahib hər bir Azərbaycan vətəndaşı və ölkədə müvəqqəti yaşama icazəsi olan hər bir xarici vətəndaş daxildir.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

# Klub və cəmiyyətlər idmanın kütləviləşməsində mühüm rol oynayır

***Sağlam olmaq hər kəsin haqqıdır. Hər bir insan istəyir ki, ideal bədən quruluşuna sahib olsun, düzgün qaməti ilə seçilsin. Bədən tərbiyəsi və idman bunun üçün ən zəruri vasitələrdən biridir. Tibb mütəxəssislərinin də təsdiq etdiyi kimi, idmanla məşğul olmaq qan-damar sisteminin inkişafı, ürəyin normal sürətlə döyünməsi, habelə əzələlərin inkişafı üçün olduqca vacibdir. İdman həm də, əhval-ruhiyyəni yüksəldir, xroniki xəstəliklərin qarşısını alır, yuxusuzluğu və təngənəfəsliyi aradan qaldırır. Bütün bunlar isə birbaşa sağlam həyat tərzinin formalaşmasına şərait yaradır.***

İdmanla müntəzəm məşğul olanlar təkcə zahiri görkəmlərini inkişaf etdirmirlər. Onlar eyni zamanda ədalətli, səmimi, mehriban olur və bir çox hallarda məhz bu xüsusiyyətlərinə görə ətrafdakılar tərəfindən rəğbətlə qarşılanırlar. Müşahidələr göstərir ki, peşəkar idmançılara cəmiyyətdə böyük hörmət var. Onlar öz hərəkətləri, davranışları ilə yetişməkdə olan gənc nəsl üçün nümunə rolunu oynayırlar. Başqa bir tərəfdən isə idmançılar zərərli vərdişlərdən uzaq olur, tüfeyli həyat tərzi keçirmirlər. Bu da, əlbəttə ki, sağlam cəmiyyətin formalaşmasında əsas şərtlərdən biridir. Müxtəlif beynəlxalq miqyaslı yarışlarda fərqlənənlər nəinki ad-san, nüfuz qazanır, həm də təmsil etdikləri ölkəni dünyada tanıdırlar. Hazırda Azərbaycan dünyada özünün idman sahəsindəki uğurları ilə seçilən ölkələrdəndir. Müxtəlif idman klublarında, cəmiyyətlərdə məşq edən idmançılar özlərinin sağlamlıqlarının qayğısına qalmaqla yanaşı, həm də gələcəkdə ən nüfuzlu turnirlərdə bayrağımızı dalğalandırır, himnimizi səsləndirirlər.

Bu gün ölkəmizdə gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi, vətənpərvərlik ruhunda yetişməsi dövlətin əsas prioritetlərindəndir. Təbii ki, bu istiqamətdə idmanın rolu danılmazdır.



Ölkəmiz müstəqillik əldə etdikdən sonra idmana və bədən tərbiyəsinə xüsusi diqqət və qayğı göstərilir. İnsanların asudə vaxtının səmərəli təşkili, uşaq və gənclərin sağlam ruhda tərbiyə almaları üçün hər cür şərait yaradılıb. İdman və bədən tərbiyəsinin kütləviləşməsində klubların, idman məktəblərinin rolunu xüsusi qeyd etmək lazımdır. Hazırda paytaxt Bakıda və bölgələrdə müxtəlif idman növləri üzrə klublar fəaliyyət göstərir. Həmin klublarda yüzlərlə uşaq, yeniyetmə və gənc idmanla məşğul olur. Maraqlıdır, bəs, görəsən, həmin idman məktəblərində məşqçi-idmançı-valideyn münasibətləri necə qurulur? Müəllimlər gənclərin fiziki və mənəvi inkişafında idmanın və bədən tərbiyəsinin rolunu necə qiymətləndirirlər? Valideynlər keçirilən məşqlərin keyfiyyətindən razıdırlarmı? Onlar öz uşaqlarını müxtəlif idman bölmələrinə, nə məqsədlə yazdırırlar? Bütün bu suallara cavab tapmaq üçün bir neçə idman kompleksində olduq, mütəxəssislərin və idmançıların fikirlərini öyrəndik.

## “Qazanılan uğurlar ölkəmizin şan-şöhrətini artırır”

Heç şübhəsiz, bu gün ölkəmizdə kütləviliyi ilə seçilən idman komplekslərindən biri də “Sərhədçi” İdman Olimpiya Mərkəzidir. Bir neçə il əvvəl əsası qoyulan bu idman qurğusu müasir standartlara cavab verir. Burada 32 idman növü ilə məşğul olmaq mümkündür. Onlardan biri də gənclər arasında sevilən cüdodur. “Sərhədçi” İdman Olimpiya Mərkəzinin kikboksinq bölməsinin baş məşqçisi Fuad Zeynalovla söhbətimiz çox maraqlı oldu. Müsahibimizin fikrincə, idmanla məşğul olmaq uşaqları təkcə fiziki cəhətdən deyil, həm əqli və mənəvi cəhətdən inkişaf etdirir: “Mən deyərdim ki, idman hər bir gənc üçün vacib sayılan əsas sahələrdən biridir. İdmanla məşğul olanlar təkcə fiziki cəhətdən inkişaf etmirlər. Onlar eyni zamanda humanistliyi, ədaləti, əzmkarlığı öyrənirlər. Qeyd etmək istərdim ki, yuxarıda sadaladıqlarım və eləcə də, səliqə, mədəniyyət, rəqibə hörmət digər idman növləri kimi kikboksda da var. Mən bir məşqçi kimi çalışıram ki, tələbələrimə bu idman növünün bütün sirlərini öyrədim. Sevindirici haldır ki, bizim çəkdiyimiz əziyyətlər bəhrəsiz qalmır. Müxtəlif yarışlarda qazandığımız uğurlar bunu sübut edir. Bizim üçün hər cür şərait yaradılıb. Bunun üçün bütün məsul şəxslərə, habelə “Sərhədçi” İdman Olimpiya Mərkəzinin rəhbərliyinə bizə göstərdiyi dəstəyə görə təşəkkürümü bildirirəm”.

Təcrübələr göstərir ki, yeniyetmə və gənclərin bir qismi müəyyən müddət bir idman bölməsində məşğul olduqdan sonra məşqlərdən uzaqlaşırlar. Bunun bir neçə səbəbi ola bilər. Əsas amillərdən biri də məşqçi-idmançı münasibətlərinin elə ilk gündən düzgün tənzimlənməməsidir. Bu barədə danışan Fuad müəllim vurğuladı ki, müəllim-tələbə münasibəti nə çox rəsmi, nə də çox səmimi olmalıdır. “Məşqçi ilə idmançı arasında münasibətlər dost yox, ata-oğul münasibəti kimi olmalıdır. İdmançı məşqçisindən qorxmamalıdır, amma çəkinməlidir, hörmət etməlidir. Hörmət etməlidir ki, müəlliminə inansın və onun verdiyi tapşırığı dəqiq yerinə yetirsin. Əlbəttə ki, müəllim-idmançı münasibətinin düzgün qurulması xeyli dərəcədə məhz məşqçilərdən asılıdır. Məşqçi dərk etməlidir ki, zala ilk addımı atan uşaq gələcəyin dünya, Avropa çempionu ola bilər. Odur ki, məşqçi elə etməlidir ki, uşaq məşqi-müəllimi sevsin. Məşq prosesində hər bir yeniyetməyə fərdi yanaşma olmalıdır. Əgər məşqçi fərdi-yanaşmağı bacarmırsa, deməli, o, məşqçi-müəllim deyil. Bəziləri sadəcə xoş sözdən, digərləri isə ciddi tənbehdən sonra öz səhvlərini düzəldirlər. Lakin müəllim ilk növbədə şirin dillə idmançısını başa salmalıdır. Necə deyərlər, insanın öyrənməsi lazım olan ilk dil şirin dildir”, - deyə Fuad Zeynalov əlavə etdi.

## “Uşaq və gənclərin fiziki tərbiyə məsələsi diqqət mərkəzində saxlanılır”

Ölkəmizdə fəaliyyət göstərən və öz uğurları ilə diqqət çəkən idman ocaqlarından biri də Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətidir (DİN İC). 1926-cı ildə Bakıda yaradılan DİN İC fəaliyyətə başladığı gündən etibarən peşəkar səviyyəli idmançıların hazırlanmasını, gənclərin asudə vaxtlarının səmərəli keçirmələrini və onların fiziki cəhətdən sağlam olmalarını qarşıya əsas məqsəd qoyub. İdman ocağında dünya və Avropa çempionatlarında, Olimpiya Oyunlarında ölkəmizin idman şərəfini layiqincə qoruyan idmançılar yetişir. Burada müxtəlif idman növləri üzrə bölmələr fəaliyyət göstərir ki, onlardan biri də cüdodur. Uşaq və gənclərə bu idman növünün sirlərini təcrübəli mütəxəssis Zakir Kərimov öyrədir. O, bizimlə söhbətində bildirdi ki, idmanla məşğul olmaq hər şeydən əvvəl gənc nəsildə vətənpərvərlik hissini yüksəldir. Zakir müəllim uşaq və gənclərə peşəkar idmançı olmasalar belə, idmanla mütləq məşğul olmağı məsləhət görür: “Müharibə şəraitində olduğumuz bir vaxtda gənclərin vətənpərvərlik ruhunda böyümələri çox vacibdir. Bu baxımdan idmanın rolu danılmazdır. Fəxrlə deyə bilərəm ki, son illər uşaq və gənclərin idmana, o cümlədən cüdoya olan maraqları çox artıb. Bu, məni çox sevindirir. Bu günün idmançıları gələcəyin sərhəd keşikçiləri, ailə başçılarıdırlar. Biz çalışırıq ki, onları düzgün tərbiyə edək. Deyə bilmərəm ki, mən bütün tələbələrimi dünya çempionu edə bilərəm. Bunu heç bir məşqçi deyə bilməz. Amma onların hər birini layiqli vətəndaş, nümunəvi əsgər kimi yetişdirmək mümkündür. Çalışdığım idman cəmiyyətində uşaq və gənclərin fiziki tərbiyə məsələsi diqqət mərkəzində saxlanılır.

Zakir Kərimovun fikrincə, təhsil və idman mütləq paralel şəkildə aparılmalıdır: “Əsl insan kimi formalaşmaq üçün təhsil və idmanın paralel şəkildə inkişaf etdirilməsi əsas şərtdir. Bəzən valideyn və idmançılar elə bilirlər ki, yaxşı oxuyan uşaq mütləq idmandan, idmanla məşğul olan isə təhsildən yayınmalıdır. Bu, düzgün fikir deyil. Unutmaq olmaz ki, təhsil insanı əqli cəhətdən, idman isə fiziki cəhətdən inkişaf etdirir. İdmanla daha yaxşı məşğul olmaq adı ilə təhsildən yayınan tələbələrimə həmişə öz iradımı bildirmişəm”.

İdmançı üçün yarışda qələbə qazandığı gün bayramdır. Ancaq etiraf etmək lazımdır ki, qızıl medala layiq görülmək heç də asan deyil. Bu, ciddi texniki-taktiki, fiziki hazırlıq tələb etməklə yanaşı, həm də özünəinam istəyir. Zakir Kərimov bu fikirdədir ki, özünəinam hiss olmayan idmançı heç vaxt böyük qələbələr qazana bilməz. “Hazırlıq fiziki, texniki-taktiki və psixoloji olmaqla əsasən üç mərhələdən ibarətdir. Burada psixoloji hazırlıq faiz nisbətilə digərlərindən daha çox əhəmiyyətlidir. Çünki idmançıda inam olmasa o, nə fiziki gücünü, nə də texnikasını əminliklə tətbiq edə bilməz. Əsl məşqçi-müəllim həm də psixoloq olmalıdır. İstənilən insana, xüsusilə də yeniyetmələrə xoş sözlər deyəndə istər-istəməz onlarda özünəinam hissi yaranır. Məşqçilər bu “sirr”i bilməlidirlər. Məşqçi idmançının daxilindəki inam hissini üzə çıxarmalıdır, göstərməlidir ki, o, yetirməsinə inanır. Belə olan halda yeniyetmə və gənc düşünür ki, əgər müəllimim mənə inanırsa, mən həmin etimadı doğrultmalıyam. Nəticədə idmançı bütün qüvvəsi ilə mübarizə aparmağa başlayır və çox vaxt qalib gəlir.

## “Əsl idmançı odur ki, məğlubiyyətə görə həvəsdən düşüb təslim olmasın”

Ölkəmizdə idmanın və bədən tərbiyəsinin inkişafında müxtəlif idman kompleksləri, cəmiyyətlərlə yanaşı, klubların da xüsusi rolu var. Belə klublardan biri də “Qızıl əlcək”dir. Burada müxtəlif idman növləri, o cümlədən boks və kikboksinq üzrə məşqlər keçilir. Bizi maraqlandıran suallarla bağlı klubun təsisçilərindən biri olan, Əməkdar məşqçi Rəhim Allahverdiyevlə görüşdük: “Bizim zəngin idman tariximiz var və bu tarixi davam etdirmək lazımdır. Mən “Qızıl əlcək”klubunda ilk vaxtlardan çalışıram. Yeniyetmə və gənclərə boksun, kikboksinq sirlərini öyrədirəm. Kikboksinq ölkəmizdə yeni-yeni inkişaf etsə də, boks idman növündə uğurlarımız kifayət qədərdir. Bu gün Azərbaycan ən nüfuzlu idman yarışlarına uğurla ev sahibliyi edir. Gənc idmançılarımız üçrəngli bayrağımızı ən yüksək zirvələrdə dalğalandırmaq üçün çox çalışmalıdırlar. Bizim vəzifəmiz isə onlara yol göstərmək, əlimizdən gəldiyi qədər kömək etməkdir. Müşahidəmə əsasən deyə bilərəm ki, idmana təzə başlayanlar adətən sağlamlıqlarının qayğısına qalırlar. Lakin bir neçə yarışda uğurla çıxış etdikdən sonra onlarda peşəkar idmana maraq yaranır. Ona görə də çalışırıq ki, klubumuza gələnlərə ilk məşq günündən etibarən maksimum dərəcədə çox şey öyrədək. Şübhəsiz ki, hər bir zərbənin icrasını da birdən-birə öyrətmək mümkün deyil. Elə buna görə də yeniyetmə və gənclərimizə səbrli olmağı, məşqlərə məsuliyyətlə yanaşmağı və həvəsdən düşməməyi arzu edirəm. Təbii ki, idmançı karyerası ərzində daim qələbə qazana bilməz. Əsl idmançı odur ki, məğlubiyyətə görə həvəsdən düşüb təslim olmasın. Psixoloji amil idmanda mühüm şərtdir. Bu amil nəinki idmanda, şəxsi həyatda da kömək olur. Bəzən yarışda elə olur ki, görüşün ilk dəqiqələri rəqibin üstünlüyü ilə keçir. Amma məğlub tərəf inadla müqavimət göstərir və sonda elə bir zərbə endirir ki, nəticə məğlub tərəfin xeyrinə dəyişir. Bax, belə xarakterli idmançılardan olmaq lazımdır. Düşünürəm ki, məşqçi idmançının xarakterinin formalaşmasında əsas simadır”.

Vətənpərvərlik elə bir hissdir ki, insanın ən çətin anında onun köməyinə gəlir, məğlub olmağına icazə vermir. Məhz vətənpərvər insanlar böyük mübarizələrdə bayrağı dalğalandırmaq, himni səsləndirmək naminə sona qədər əzmkarlıqla mübarizə aparırlar. Sözsüz ki, bu, idmanda da belədir. Əməkdar məşqçi də bu fikirdədir. Onun sözlərinə görə, vətənpərvərlik hissi idmançıya lazım olan ən əsas keyfiyyətlərdəndir. “Şübhəsiz ki, yerinə yetirdiyimiz işin uğurlu alınması üçün hər birimiz vətənpərvər olmalıyıq. Məsələn müəllim, həkim, polis millətin təəssübünü çəkməlidir ki, öz işinin öhdəsindən layiqincə gəlsin. Eləcə də idmançılar. Bəzən həvəskarlar bunu dərk etmirlər, lakin peşəkar idmançılar yaxşı bilirlər ki, həqiqətən, vətənpərvər olanlar çox vaxt qalib gəlirlər. Vətənpərvərlik hissi insanda ən kiçik yaşlarından formalaşdırılmalıdır. Təsadüfi deyil ki, müntəzəm olaraq tələbələrimə milli qəhrəmanlarımız haqqında danışır, onlara bayraq, gerb, himn barəsində suallar verirəm. Bu, kiçikyaşlı idmançılarda vətənpərvərlik hissinin aşılanmasının ən yaxşı yoludur. Ancaq, böyüklər həm də öz hərəkətləri ilə uşaqlara, yeniyetmələrə nümunə olmalıdırlar. Əgər idmançıda vətənpərvərlik hissi varsa, o ən yüksək zirvələri də fəth edə bilər. Vətən sevgisi hər şeyə qadirdir”.



“Qızıl əlcək” klubunda kifayət qədər bacarıqlı idmançılar yetişib ki, onlardan biri də artıq uzun illərdir ki, boksla məşğul olan Nicat Həsənovdur. Nicat Avropa çempionatının ikincisidir. Onun fikrincə, təsadüfi insanlar idmanda arzu etdikləri nəticəni əldə edə bilməzlər: “10 ilə qədərdir ki, idmandayam. Mənə elə gəlir ki, idman xüsusi bir sahədir. İdman təsadüfi insanları sevmir. Olduqca çətin sahədir. Düşünürəm ki, əgər böyük uğur qazanmaq istəyirsənsə, idmanı sevmək, hətta ona bağlanmaq lazımdır. Məhz bu bağlılıq ən çətin anlarda insanı idmandan uzaqlaşmağa qoymur. Əlbəttə, bu vaxta kimi qələbələrim kimi məğlubiyyətlərim də olub. Çox ziddi zədələr almışam. Ancaq idmana olan sevgim məni boksdan uzaqlaşmağıma icazə verməyib. Nəticədə Avropa çempionatının gümüş medalını vətənə gətirmişəm, mötəbər yarışlarda iştirak etmişəm. Məqsədim Olimpiya zirvəsini fəth etməkdir. Bunun nə vaxt olacağını bilmirəm. Lakin ailəmə və məşqçimə söz vermişəm ki, mütləq məqsədimə çatacağam”.

Göründüyü kimi, mütəxəssislər və idmançılar da təsdiq edirlər ki, idmanla məşğul olmaq hər bir yeniyetmə və gənc üçün çox vacibdir. İdman və bədən tərbiyəsi insanda həm də yüksək dəyərlər formalaşdırır, onu əzmkar şəxs kimi yetişdirir. Odur ki, həvəskar şəkildə olsa da idman məşqlərində iştirak etmək hər birimiz üçün əsas prioritetlərdən olmalıdır. Bunun üçün ölkəmizdə kifayət qədər infrastruktur var. Üz tutduğumuz idman ocaqlarında və digərlərində yaradılan şərait imkan verir ki, hər bir insan arzu etdiyi idman növü ilə məşğul olsun, onun sirlərinə dərindən yiyələnsin.

***Kənan Novruzov***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# FUTBOL




*Ötən həftə Topaz Premyer Liqasında 20-ci turun oyunları keçirilib. Turun açılış görüşü “ASK Arena” stadionunda keçirilib. “Keşlə” debütant “Sabah” klubu ilə üz-üzə gəlib.*

## “Neftçi” “Sauthempton” və “Real”ın uğurunu təkrarladı

İlk dəqiqələrdən rəqibin qapısı önündə təhlükəli hücumlar yaradan “Keşlə” matçın 26-cı dəqiqəsində hesabı açıb. Conatan Ayite cinah ötürməsini dəqiq zərbə ilə tamamlayıb - 1:0.

Fasiləyə qədər hesab dəyişməyib.

Qarşılaşmanın ikinci hissəsi başlayan kimi meydan sahibləri hesab arasındakı fərqi iki topa çatdırıblar. Conatan Ayite adını tabloya yazdıraraq dublunu rəsmiləşdirib - 2:0. Matçın 66-cı dəqiqəsində “Keşlə” yenidən fərqlənməyə nail olub. Cabir Əmirli fərdi ustalığı sayəsində rəqibin qapıçısına şans verməyib - 3:0.

Qalan dəqiqələrdə hücumların kəsərini artıran “Sabah” fərqlənməyə yaxın olsa da, paytaxt təmsilçisi qapısını toxunulmaz saxlayıb.

Günün ikinci oyununda “Qarabağ” Tofiq Bəhramov adına Respublika stadionunda autsayder “Zirə” komandası ilə qarşılaşıb. Qarşılıqlı hücumlar şəraitində keçən görüşdə hesab açılmayıb.

Turun üçüncü görüşü Qəbələ şəhər stadionunda təşkil olunub. “Qəbələ” doğma azarkeşlər önündə “Səbail” klubunu qəbul edib. İlk dəqiqələrdən hər iki komandanın cəhdlərinə baxmayaraq birinci hissədə hesab açılmayıb. Qarşılaşmanın ikinci hissəsində “Qəbələ” iki dəfə fərqlənməyə nail olub. Əyalət təmsilçisinin nigeriyalı legioneri Ceyms Adeniyi (49, 55) dubl edərək adını tabloya yazdırıb - 2:0. Matçın 73-cü dəqiqəsində “Qəbələ” klubunun futbolçusu Bəhlul Mustafazadə kobud oyuna görə ikinci sarı vərəqə alaraq meydandan qovulub. Qarşılaşmanın 84-cü dəqiqəsində qonaqlar qollardan birinin əvəzin çıxıblar. Belə ki, künc ötürməsindən sonra topa hamıdan tez yetişən Elvin Yunuszadə qapıya dəqiq zərbə endirib - 2:1. Qalan dəqiqələrdə səbaillilərin cəhdlərinə baxmayaraq hesab dəyişilməyib.

Turun sonuncu qarşılaşması “Kapital Bank Arena” stadionunda keçirilib. Lider “Neftçi” səfərdə “Sumqayıt” komandası ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüş “Neftçi” klubunun 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Oyunda hesabı meydan sahibləri 26-ci dəqiqədə açıblar. Müdafiəçilərin səhvini Peyman Babayi bağışlamayıb - 1:0. Qoldan sonra irəli atılan “Neftçi” rəqibin qapısı önündə bir neçə təhlükəli vəziyyət yaratsa da, birinci hissədə hesab dəyişilməyib.

Qarşılaşmanın ikinci hissəsində uzun sürən hücumlardan sonra 76-cı dəqiqədə “flaqman” hesabda tarazlığı bərpa eləməyə nail olub. Cinah ötürməsindən sonra paytaxt təmsilçisinin müdafiəçisi Mamadu Mbodj adını tabloya yazdırıb - 1:1. Matçın 77-ci dəqiqəsində meydan sahibləri azlıqda qalıb. Hakimlə mübahisəyə görə Mehdi Cənnətov meydandan qovulub. Qarşılaşmanın 86-cı dəqiqəsində “Sumqayıt” klubunun baş məşqçisi Ayxan Abbasov da qırmızı vərəqə alaraq meydandan kənarlaşdırılıb. Oyunun 87-ci dəqiqəsində “Neftçi” hesabda önə keçməyə nail olub. Ömər Buludov rəqibin qapıçısına şans verməyərək qapıya qüvvətli zərbə endirib - 1:2.

Beləliklə, “Neftçi” səfərdə çətin qələbə qazanaraq və “Qarabağ”ın xal itirməsindən yararlanaraq turnir cədvəlində vahid liderə çevrilib. “Flaqman” 44 xalla birinci, “Sumqayıt” isə 16 xalla sonuncu - 8-ci yerdə qərarlaşıb.

Qeyd edək ki, bu komandaların birinci dövrədəki oyunu “flaqman”ın qələbəsi ilə başa çatmışdı - 2:0.

## “Qarabağ”ın futbolçusu Yunanıstan klubuna keçə bilər

Azərbaycan millisinin və Ağdamın “Qarabağ” klubunun hücumçusu Mahir Mədətov karyerasını Yunanıstanda davam etdirə bilər.

Yunanıstan KİV-inə istinadla xəbər verirlər ki, 21 yaşlı futbolçu AEK klubunun maraq dairəsindədir.

Afina təmsilçisi qış transfer pəncərəsində futbolçunu heyətinə qatmaq istəsə də, tərəflər arasında müqavilə imzalanmayıb. Transferin yayda gerçəkləşəcəyi gözlənilir.




## Qitə çempionatının maskotu mart ayında təqdim ediləcək

2020-ci ildə keçiriləcək futbol üzrə Avropa çempionatının maskotunun təqdimatı mart ayı ərzində olacaq.

Bunu FİFA idarə heyətinin üzvü, Avro 2020-nin Rusiya üzrə təşkilat komitəsinin rəhbəri Aleksey Sorokin deyib.

Avropa çempionatı 2020-ci il iyunun 12-dən iyulun 12-dək davam edəcək. Turnirin 60 illik yubileyi münasibətilə çempionata Avropanın 12 ölkəsi ev sahibliyi edəcək.

Qitə birinciliyinin qrup mərhələsinin üç, dörddəbir finalın isə bir qarşılaşması Bakıda oynanılacaq. İyunun 13-də, 17-də və 21-də A qrupunun üç oyunu, iyulun 4-də isə dörddəbir final mərhələsinin bir görüşü 68,7 min azarkeş tutumuna malik Bakı Olimpiya Stadionunda keçiriləcək.

## FİFA “Çelsi”nin etirazını rədd edib

FİFA İngiltərə təmsilçisi “Çelsi” klubunun transfer qadağası ilə bağlı etirazını rədd edib.

Fevralın 22-də FİFA-nın İntizam Komitəsinin qərarına əsasən, “Çelsi” iki transfer pəncərəsində yeni futbolçu qeydiyyatdan keçirə bilməyəcək. Bu qadağadan əlavə klub 600 min İsveçrə frankı məbləğində cərimələnib.

## Kasilyasdan iki rekord

UEFA Çempionlar Liqasının səkkizdəbir final mərhələsində “Portu”nun “Roma”nı məğlub etdiyi görüş (3:1) portuqaliyalıların qapıçısı İker Kasilyas üçün əlamətdar olub.



Bu oyundakı qalibiyyət ispaniyalı qapıçının karyerası ərzində UEFA Çempionlar Liqasında 101-ci qələbəsi olub. O, bu göstəriciyə görə “Yuventus” klubunun hücumçusu Kriştianu Ronaldonu qabaqlayıb. Portuqaliyalı futbolçu bu turnirdə 100 dəfə qələbə sevinci yaşayıb.

Otuz yeddi yaşlı qolkiper “Roma” ilə görüşdə UEFA Çempionlar Liqasında 175-ci oyununa çıxıb. O, bu göstəriciyə görə də Kriştianu Ronaldonu geridə qoyub.

Portuqaliyalı Avropanın ən nüfuzlu klub turnirində 159 dəfə meydana çıxıb.

## Futbol dünyasında nələr baş verir!



Madrid “Real”ının sabiq baş məşqçisi Zinəddin Zidan dünən yenidən əvvəlki klubuna qayıdıb. İspaniyanın “El-Pais” nəşrinin yaydığı xəbərə görə, fransalı mütəxəssislə yaxın günlərdə rəsmi müqavilə imzalanacaq.

Qeyd edək ki, bir müddət öncə “Real”ın prezidenti Florentino Peresin Zidana yenidən komandaya qayıtmağı təklif etmişdi. Ancaq məşqçinin bu barədə yekun qərarı qarşıdakı aylarda verəcəyini bildirmişdi.

* * *

“Olimpiya dünyası” qəzeti “Marca”ya istinadən xəbər verir ki, məşq zamanı ikitərəfli oyundan sonra Marselo və Serxio Ramosun sözləri düz gəlməyib.

Braziliyalı müdafiəçinin yer aldığı kollektivin qələbəni bayram etməsi kapitanı özündən çıxarıb. Nəticədə tərəflər arasında mübahisə yaranıb. Əlbəyaxa davanın qarşısını futbolçular alıb.

Qeyd edək ki, Çempionlar Liqasında mübarizəni dayandıran Madrid klubu La Liqada 27 turdan sonra 51 xalla turnir cədvəlinin 3-cü pilləsində qərarlaşıb.

* * *

“Atletiko”nun qapıçısı Yan Oblak PSJ-nin diqqətini cəlb edib. Paris klubunun prezidenti Nasser Əl-Xəlafi sloveniyalı qolkiperi komandasında görmək istəyir. Onun 26 yaşlı oyunçu ilə müqavilə imzalanmasında israrlı olduğu bildirilib. Qeyd edək ki, Oblakın Madrid təmsilçisi ilə müqaviləsi 2021-ci ilin yayında başa çatır.

* * *

“Barselona” rəhbərliyi komandanın lideri Lionel Messi ilə yeni müqavilə imzalamaq istəyir. Yeni razılaşma 2023-cü ilin yayına qədər nəzərdə tutulub. Argentinalının hücumçunun qüvvədə olan sazişi 2021-ci ilin yayında bitir.

Qeyd edək ki, 2003-cü ildə Kataloniya klubunda debüt edən 31 yaşlı futbolçu bu mövsüm İspaniya La Liqasında 24 oyuna 25 qol vurub, 13 məhsuldar ötürmə edib.

* * *

“Roma”nın yeni baş məşqçisi müəyyənləşib. Eusebio Di Françeskonun istefaya göndərilməsindən sonra boş qalmış baş məşqçi vəzifəsinə Kladio Ranyeri təyin edilib. Onunla bu mövsümün sonuna kimi müqavilə imzalanıb.

Qeyd edək ki, Ranyerinin son klubu “Fulhem” olub. O, 2009-2011-ci illərdə də “Roma”nı çalışdırıb.

* * *



Hollandiyalı məşqçi Lui van Qaal karyerasını başa vurub.

68 yaşlı mütəxəssis “AS” nəşrinə açıqlamasında bundan sonra gününü ailəsi ilə keçirmək istədiyini bildirib:

“Həyat yoldaşım mənimlə daha çox vaxt keçirmək üçün 22 il əvvəl işindən ayrıldı. Həmin vaxt ona söz verdim ki, 55 yaşımda mən də karyeramı bitirəcəm. Ancaq indi yaşım 65-dən çoxdur. Belə davam edə bilmirəm. Futbolçular kimi, həyat yoldaşımın da Van Qalla birlikdə olmaq haqqı var. Onun qərarıma görə çox xoşbəxt olduğunu deyə bilərəm”.

Qed edək ki, Van Qal karyerası ərzində Hollandiya millisi, “Mançester Yunayted”, “Barselona”, “Ayaks”, “Az Alkmar” və “Bavariya” klublarını çalışdırıb.

* * *

DÇ-2022 ilə bağlı növbəti rüşvət iddiası yaranıb. FİFA-nın çempionatın Qətərdə keçirilməsi üçün bu ölkədən 780 milyon dollar aldığı barədə fikirlər səsləndirilir. Qətərin mundiala ev sahibliyi edəcəyi elan olunmamışdan 3 həftə əvvəl FİFA-ya 300 milyon dollar təklif etdiyi iddia olunur. Daha sonra FİFA-ya 480 milyon dollar verəcəyini vəd edən qətərlilər dünya çempionatını keçirmək hüququ qazanıb. Rüşvət məsələsində FİFA-nın sabiq prezidenti Zepp Blatter günahlandırılır. İsveçrə polisinin artıq bununla bağlı araşdırmaya başladığı da bildirilir.

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

# Xalqımız qələbə gününü səbirsizliklə gözləyir

*Bütün gözəlliklər anaların sevindiyi, sevildiyi yerlərdədir, bütün özəlliklər Vətənin var olduğu yerlərdədir. Anaya bərabər tutulan Vətən var olmağımızdır, yaşamağımızdır, yanmağımızdır. Qarabağ qazisi Kamil Musavinin dediyi kimi “Vətən - hər zaman uğrunda ölməyə hazır olduğumuzdur”. Vətən anadır, Ana isə vətən. Nəfəsinə, havasına, tozuna-torpağına qurban olum, Vətən. Tanrının nemətlərini əsirgəmədiyi, Günəşin çox sevdiyi cənnət qoxulu anam Azərbaycan! Yaşa, var ol!. Sən varsansa, biz də varıq.*

### Vətən, onun üçün yaşamaq və yanmaqdır

Vətən gündüzlər günəşim, gecələr qaranlıqda işıq saçan ayımdır, Vətən mənim ruhumdur. Əli Kərim demişkən: “Azərbaycan! Könlümün, ruhumun, sevincimin, kədərimin, fikrimin Vətəni”. Vətən də canlıdır, sevəndir, seviləndir və biz onun taleyi üçün cavab verməyə borcluyuq! Tanınmış Ukrayna şairi, vətənpərvər insan Yevgeni Yevtuşenkonun dediyi kimi: “Vətən də canlı varlıqdır. Onun qoynunda həyatda rast gəldiyimiz insanlar - qadınlar, uşaqlar yaşayırlar. Vətən siyasi şüarların və ifadələrin dəstindən ibarət deyil. Vətənə olan sevgi də siyasi quruluşa olan sevgiyə bənzəmir. Bu, həm də təbiətə olan sevgi deyil, baxmayaraq ki, təbiətin özü də canlı varlıqdır.

Amma deyim ki, Vətən sizinlə bizik! Odur ki, biz hər şeyə görə cavab verməliyik. Özü də həm keçmişə görə, həm də bu günə görə”.

Vətən mənim üçün sağ ikən ciyəri bağrından sökülən Qarabağ xanı Pənahəli xandır, şərqdə ilk Azərbaycan Demokratik Cümhuriyyətinin yaradıcısı Məhəmməd Əmin Rəsulzadədir, canını bu torpaq üçün fəda edən Mübariz İbrahimovdur, Əlif Hacıyevdir.





Vətən həm də bizim üçün Azərbaycanı yenidən quran və yaradan Heydər Əliyevdir!

Vətən sevgidir, məhəbbətdir, onun üçün yaşamaq və yanmaqdır. Vətən anasının qucağında mışıl-mışıl yatan körpəmin nəfəsidir, dan yeri Xəzərdən boylanaraq hərarəti ilə bizi isidən günəşimdir, küçədə şən qayğısız, səs-küylə oynayan dəcəl körpələrdir, savadlı, sağlam məktəblilərdir, bilikli tələbələrdir.

Vətən bizdən ayrı qalan Təbrizimdir, Qarabağımdır, küllərindən yenidən doğan, “Böyük qayıdış”ın ilk qaranquşu Cocuq Mərcanlımdır. Vətən Qarabağ savaşında erməni cəlladları tərəfindən vertolyot qəzasında qətlə yetirilən say-seçmə Azərbaycan oğullarıdır, əliyalın düşmən tanklarının qarşısına çıxan və onun müstəqilliyi uğrunda canından keçən 20 Yanvar şəhidləridir. Bir də 1992-ci ilin fevral sazağında Xocalıda amansız qəddarlıqla məhv edilən günahsız körpələrimdir, heysiyyəti təhqir edilən, mənliyi alçaldılan ahılımdır, cavanımdır...

Yevlaxdan Şuşaya, Gələbədindən Ağdərəyə, Tərtərdən Cəbrayıla, Bərdədən Horadizə, İsa bulağından Ağcabədiyə, Turşsudan Kolanıya, Əsgərandan Xındırıstana, Xankəndindən Abdal-Gülablıya, Baharlıdan Horovluya, Ağa körpüsündən Hindarxına, Korun Karvan Sarayından Gəyən düzünə qədər uzanan Qarabağ torpağı niyə həmişə yağlı tikə olub keçib düşmənlərin boğazına?! Qonşu imperiyaların maraq və hədəf dairəsində olan Odlar yurdu niyə bölünməli, param-parça olmalıdır ta əsrlərdən bəri? Tanrı və təbiət gözəlliklərini bu torpaqdan əsirgəmədiyi üçünmü?! Ya bizim bu qədər mərhəmətli, xain qonşularımıza güzəştə getdiyimizdənmi? O qədər suallar var ki...

### Biz müharibə istəmirik, amma...

Canına yağı dadanmış xalqımız əsrlərdir zorla cəlb edildiyi bəladan qurtula bilmir. Biz azğın və xain düşmənə güzəştə getdikcə qudurub cızığından çıxdı, daha çoxunu istədi. 101 il öncə Azərbaycanın tarixi torpağı olan İrəvanın ermənilərə peşkəş edilməsi də axan qanları durdurmadı, əksinə, başımıza bundan da betər müsibətlər, bəlalar gəldi. 20 Yanvar, Xocalı faciəsi yazıldı bu xalqın qan yaddaşına. Vətəni, yurdu, düşməndə olan millətin övladları heç rahatlıq tapmadılar, indi də tapmırlar.

31 ildir ki, Azərbaycan ataları-anaları şəhid verirlər. Biz müharibə istəmirik, analarımız isə heç istəmirlər. Amma söhbət Vətəndən gedirsə, gerisi təfərrüatdır. Hər bir xalq kimi biz də zəfər qazanmağı çox sevirik. Çünki zəfərə, qələbəyə təşnədir səngərlərdə oğullarını qurban verən gözüyaşlı, ürəyi dağlı analarımız, atalarımız...

Müharibə bütün arzuolunmaz tərəfləri ilə bərabər həm də, bir millətin genetik xarakterinin, bütünlüyünün, mənəviyyatının nümayişidir. Yurd, vətən, torpaq, tarix, milli mədəniyyət, hətta iqlim belə etnosu və milləti müəyyənləşdirən amillərdir. Mədəniyyəti coğrafi tutarından çox-çox böyük olan Azərbaycan xalqının savaş mədəniyyəti də özünəməxsusdur, tolerantdır, ədalətlidir. Azərbaycan xalqı bu illər ərzində kimsənin torpağına tamah salmadan, sadəcə, ona məxsus olan vətənini, uğrunda şəhid verdiyi torpağını düşməndən azad etmək, tarixini, mədəniyyətini barbarcasına məhvedilməkdən qurtarmaq istəyir.

### “Azərbaycanın ərazi bütövlüyünün bərpası bizim əsas vəzifəmizdir”

Azərbaycan Qarabağın taleyi ilə bağlı öz qəti mövqeyini 2016-cı ildə aparılan uğurlu aprel hərbi əməliyyatları nəticəsində ortaya qoydu. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin səsləndirdiyi “Azərbaycan Ordusu Qarabağı işğaldan azad etməyə qadirdir və buna heç bir qüvvə mane ola bilməz” bəyanatı düşmən cəbhəsində bomba kimi partladı. Düşmən və onun havadarları anladılar ki, heç bir təzyiqlə Azərbaycan xalqının iradəsini qıra, vətənpərvərlik hisslərini öldürə bilməyəcəklər.

Biz uzun zamandır zəfər sevinci yaşamamışdıq, qələbəyə tamarzı idik. Aprel ayında Azərbaycan oğulları qanlarıyla bu qüruru, güvəni bizə yaşatmaqla bərabər, zəfərin gül bağçasından deyil, savaşa girən toplumun zehniyyətindən, iradəsindən və arxa cəbhə ilə ön cəbhənin eyni vaxtda nəfəs ala bilməsindən keçdiyini öyrətdilər, qələbə öncə düşüncədə, sonra meydanda çalınır, dedilər. Aprel döyüşlərində neçə-neçə igidimizin şəhid düşdüyü torpaqda düşmənə yenildiyini qəbul etdirib, “Zəfər bizimdir” deyə, bildik. Və biz növbəti zəfərimizi Günnüt əməliyyatında tarixə yazdıq. Zaman-zaman ədalət prinsipini, mərdliyini qoruyub saxlayan Azərbaycan xalqı öz dövlətinə, onun uzaqgörən liderinə, Ali Baş Komandan İlham Əliyevə inanır: “Bu gün Azərbaycan Ordusu dünyada güclü ordular sırasındadır. Aprel döyüşləri bizim gücümüzü göstərdi. Ən əlverişsiz hərbi mövqelərdən əks-hücum əməliyyatı apararaq biz strateji yüksəklikləri əldə etdik. Torpaqlarımızı işğalçılardan azad etdik. Bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarında Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. Azərbaycanın ərazi bütövlüyünün bərpası bizim əsas vəzifəmizdir.

*“Azərbaycanda vətənpərvərlik hissləri, dövlətçiliyə bağlılıq çox yüksək səviyyədədir”*

*İlham Əliyev*

Azərbaycan vətəndaşları bunu bilməlidirlər ki, bu, hər bir vətəndaşın əsas vəzifəsidir, dövlətin əsas vəzifəsidir”.

Xalqımız qətiyyətli və müdrik rəhbərinin komandanlığı altında ən müasir və güclü silahlarla silahlanmış Azərbaycan ordusunun Qarabağı tez bir zamanda işğaldan azad edəcəyinə qəti əmindir və qələbə gününü səbirsizliklə gözləyir!.




### “Bu millət tarixin ən çevik və həqiqət axtaran millətidir”

Araşdırmaçı professor, keçmiş “KQB” polkovniki Rövşən Novruzoğlu “Ölüm hüceyrələri və ya genetik ölüm...” adlı tədqiqat əsərində qeyd edir ki, XX əsrin əvvəllərindən bəri Rusiya, Böyük Britaniya, ABŞ-ın xüsusi kəşfiyyat qurumları Azərbaycan xalqının zəngin genofondunu məhv etmək üçün bir sıra vəhşi qətliam və zorakılıqlara əl atıblar. Mürtəce imperiya ölkələri bizdən qorxduqları üçün tarix boyu həmişə Azərbaycan xalqını əzməyə çalışıblar və bu proses indi də davam edir.

Həmin tədqiqat əsərində qeyd olunur ki, müharibə illərində SSRİ Səhiyyə Nazirliyinin “Məxfi auditoriya”sına başçılıq edən akademik G.S.Markov 1954-cü ilin iyulun 12-də şəxsən N.S.Xruşşova ünvanladığı məktubda yazırdı: “Məlum olub ki, ölkəmizin ərazisində mövcud olan türk xalqları içərisində Azərbaycan ərazisi və orada yaşayan azərbaycanlılar gələcəkdə daha ciddi fəsadlar törətmək iqtidarında olacaqlar. Bu millət tarixin ən qızğın, çevik və həqiqət axtaran millətidir. Onun genetik hüceyrələri bizi çox düşündürür. Onların çoxalıb, artması bizim xeyrimizə deyil. Yalnız lokal müharibələr, kütləvi zəhərlənmələr, köçürmə və deportasiyalar bu millətin genetikasındakı inkişafı ləngidə bilər”. Axtardığımız suallara cavablardan biri də məhz budur. Ta əsrlərdən bəri Azərbaycanı məhv etmək, azərbaycanlıları yer üzündən silmək düşmənlərimizin başlıca amalı, qayəsi, məqsədi olub.

Ölkə rəhbəri İlham Əliyevin və birinci vitse-prezident Mehriban Əliyevanın bugünlərdə mədəniyyət və incəsənət xadimləri görüşü vətənini sevən və onun tarixini, mədəniyyətini qiymətləndirməyi bacaran hər bir vətəndaşın ürəyincə oldu. Bir xalq kimi dəyərlərimizi qiymətləndirməyi bacarmalıyıq. Bu, hər birimizin borcudur, çünki Vətən sizinlə bizik!. Milli və mənəvi dəyərlərimizi mühafizə etmək, torpağımızı, dilimizi, musiqi və ədəbiyyat xəzinəmizi qorumaq hər birimizin amalı, qayəsi və məqsədi olmalıdır. Ölkə rəhbərinin fevralın 2-də Gənclər Forumundakı çıxışı hər birimizə, körpəsindən tutmuş ahılına kimi hər bir Azərbaycan vətəndaşına bir çağırışdır: “Biz əsrlər boyu başqa ölkələrin, imperiyaların tərkibində yaşamışıq, ancaq öz milli mənliyimizi qorumuşuq. Halbuki bu, çətin idi. Nəyin hesabına? İlk növbədə, ona görə ki, biz həmişə milli-mənəvi dəyərlərə sadiq olmuşuq, həmişə Azərbaycan dəyərlərini qorumuşuq. Bunu əsrlər boyu ən əlverişsiz mühitdə qorumuşuq, bu gün də qorumalıyıq. Bunu qoruyan nəsillərdir - yaşlı nəsil, gənc nəsil. Bu gün biz bunu qoruyuruq və Azərbaycanın müstəqilliyinin, xalqımızın milli maraqlarının keşiyində durmuşuq. Bax, bu gün yetişən gənclər gələcəkdə eyni addımları atmalıdırlar.

Bunu etmək üçün onlarda milli təfəkkür, milli düşüncə, milli ruh olmalıdır. Biz çalışırıq gəncləri bu istiqamətə yönləndirək ki, onlar böyüyəndə həmişə Azərbaycanın dövlət müstəqilliyinin keşiyində dursunlar. Ona görə hesab edirəm ki, bilik, savad, müasirlik, vətənpərvərlik, milli ruh gənclərimizin əsas prinsipləri olmalıdır. Mən şadam ki, Azərbaycan gəncləri məhz bu meyarlara cavab verirlər”.

### İncik ruhların xatirinə...

Bilirsiniz nə istəyirəm?!

İstəyirəm ki, yer üzündə bütün insanlar firavan yaşasınlar, bütün dünya azərbaycanlıları həmrəy, vətənpərvər olsunlar. İstəyirəm ki, ahıllarımız qayğıdan kənarda qalmasınlar, gənclərimiz sağlam təfəkkürlü, tərbiyəli olsunlar.

Xalqımın qanına susayanları, torpağıma göz dikənləri, say-seçmə oğullarımızı əlimizdən alanları, körpələrimizi süngüdən keçirənləri, insan haqlarını tapdalayanları qaranlıq zindana atmaq, dar ağacından asmaq istəyirəm.

Bilirsiniz, nə arzulayıram?!

Aydın səma, günəşli gün arzulayıram. Müharibələrsiz, fitnə-fəsadsız dünya arzulayıram. Bütöv Azərbaycanımın bərpa olunmasını, Qarabağımın əsirlikdən azad olunmasını, şəhidlərimin ruhunun şad olmasını arzulayıram, bəzən sağ qalmalarına sevinməyən Qarabağ qazilərinin xatirinə, şəhidlərin incik ruhu xatirinə...

Gəlin, bütövləşməkdən, sevməkdən, inanmaqdan yorulmayaq. Gəlin, balacadan böyüyə, bir olaq, həmrəy olaq, bütün və bütöv Azərbaycanın naminə!!!

Var ol, yaşa, anam Azərbaycan!

*Səadət Hakıyeva*

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaranmasının 10-cu ildönümü və Novruz bayramı münasibətilə təşkil olunan fərdi jurnalist yazıları müsabiqəsinə təqdim etmək üçün*



# Dünya_idmanı



## Çinli atlet dünya rekordunu yeniləyib

Çində 50 kilometr məsafəyə idman yerişi üzrə yarışda yerli idmançı Liu Honq dünya rekordunu təzələyib.

Atlet bu məsafəni 3 saat 59 dəqiqə 15 saniyəyə qət edib. Liu Honqdan əvvəl də bu məsafə üzrə dünya rekordu Çinin digər qadın idmançısı Lianq Ruiyə (4 saat 4 dəqiqə 36 saniyə) məxsus idi.

Liu Honq 20 kilometr məsafəyə idman yerişi üzrə Rio-2016 Yay Olimpiya Oyunlarının qalibi, dünya çempionatının qızıl, gümüş və iki dəfə bürünc mükafatçısıdır. İdmançı, eyni zamanda, bu məsafə üzrə 2015-ci ildə yeni rekord müəyyən edib (1 saat 24 dəqiqə, 38 saniyə).

## FİFA nəzərdən keçirir

FİFA DÇ-2022-nin bəzi qarşılaşmalarının Oman və Küveytdə oynanılması variantını nəzərdən keçirir.



Küveyt və Oman bundan əvvəl dünya birinciliyinin keçirilməsində Qətərə köməklik göstərməyə hazır olduqlarını bildiriblər.

DÇ-2022 ənənəvi olaraq 32 deyil, 48 komandanın iştirak edəcəyi ilk dünya çempionatı ola bilər. Turnirin genişləndirilməsi, oyunların digər ölkələrdə keçirilməsini tələb edəcək. FİFA-nın göstərilən ölkələrin nümayəndələri ilə məxfi danışıqlar apardığı bildirilir. Təşkilatın prezidenti Canni İnfantino bu yaxınlarda Oman və Küveytdə səfərdə olub.

## Qadın futbolçular federasiyanı məhkəməyə verdi

ABŞ-ın qadınlardan ibarət futbol üzrə yığması Los-Anceles məhkəməsində ölkənin Futbol Federasiyasına (USSF) qarşı iddia qaldırıb.

28 futbolçu USSF-i əmək haqqı, tibbi xidmət, səfər şərtləri və məşqlərin həcmi məsələlərində ayrı-seçkilikdə ittiham ediblər.

Nəşr qeyd edir ki, Los-Anceles məhkəməsinə verilmiş mülki iddianın məzmunu faktiki olaraq 2016-cı ildə Bərabər İmkanlar üzrə Komissiyaya Karli Lloyd və Aleks Morqan da daxil olmaqla, yığmanın beş oyunçusu tərəfindən göndərilmiş ayrıseçkiliklə bağlı şikayətinin məzmunu ilə eynidir.

## *3 qat dünya çempionu canına qəsd etdi*



ABŞ-da velotrek üzrə üçqat dünya çempionu Kelli Ketlin öz həyatına son qoyub.

23 yaşlı idmançının cansız bədəni Kaliforniya ştatındakı evində tapılıb. Onun hansı şəraitdə intihar etdiyi barədə açıqlama verilmir.

İdmançının ölümü haqqında informasiyanı ABŞ Velosiped İdmanı Federasiyasının prezidenti Bob Demartini də təsdiqləyib.

Qeyd edək ki, Kelli Ketlin qadınlar arasında keçirilən velotrek üzrə 2016, 2017 və 2018-ci il dünya çempionatlarında (komandalı çıxışlarda) qızıl medal qazanıb.

**olimpnews.az - sizin saytınız**




# “Mənim kimi ölməyin”

1958-ci ildə təyyarə qəzasında heyətinin yarısını itirən “Mançester Yunayted”i yenidən əvvəlki halına qaytarmaq vəzifəsi Matt Basbinin üzərinə düşmüşdü. Bir gün komandanın seleksiyaçısı Bob Bişopun ona dediyi bu sözlər böyük



bir başlanğıcdan xəbər verirdi: “Deyəsən, bir dahi tapmışam”. Onun “dahi” dediyi bu futbolçu Corc Best idi. Amma o, təkcə istedadı ilə deyil, həm də dediyi sözlərlə, yaşadığı həyatla, xarici görkəmi ilə böyük məşhurluq qazanan, bu gün də sevilən insan oldu.

## 17 yaşında parlaq debüt

Corc Best 1947-ci ildə, Şimali İrlandiyanın paytaxtı Belfastda dünyaya gəlib. İlk vaxtlarda baxışda olduğu Belfastın yerli klubu olan “Qlentoran” onu zəif və balaca olduğu üçün seçməkdən imtina etmişdi. Amma məşqlərdə özünü yaxşı tərəfdən göstərdikdən sonra komandanın baş məşqçisi Co Armstronq onunla müqavilə imzalanmasına razılıq verir. Beləliklə, onun peşəkar karyerası 1963-cü ildə başlayır. Elə həmin il Bob Bişop tərəfindən kəşf edilir və “Mançester Yunayted”də oynamağa başlayır.”Qırmızı şeytanlar”ın heyətində 17 yaşında debüt edən Corc, ilk dəfə 1963-cü ilin 14 sentyabrında - “Vest Bromviç”ə 1:0 hesabı ilə qalib gəldikləri oyunda forma geyinir. Komandada ilk qolunu isə həmin ilin dekabrında vurur. Futbolçu mövsümün ikinci yarısında daha çox oynamaq şansı qazanır və həmin mövsüm iştirak etdiyi 26 oyunda 6 qol vurur. Komandası isə “Liverpul”dan 4 xal geri qalaraq, mövsümü ikinci pillədə tamamlayır. “Mançester Yunayted” 1968-ci ildə Çempionlar Kubokunu qazanaraq, bu turnirdə qalib gələn ilk ingilis klubu olur. Həmin mövsüm turnirin 1/4 final mərhələsində “Benfika”ya 4:1 hesabı ilə qalib gələn “Mançester Yunayted”in qollarından birinin müəllifi də 92-ci dəqiqədə vurduğu qolla məhz Corc Best olur. Bu oyundan sonra Avropada məşhurlaşan Corc, 1968-ci ildə həm Avropada, həm də İngiltərə Futbol Yazarları birliyi tərəfindən verilən “İlin futbolçusu” mükafatına layiq görülür. Eyni zamanda, ona azarkeşlər tərəfindən “Belfast uşağı” ləqəbi də verilir.



1970-ci ildə “Northempton”a qarşı oynanılan Liqa kuboku matçında 6 qol vuran Best, Mançester təmsilçisinin heyətində keçirdiyi 466 oyunda ümumilikdə, 178 qola imza atmağı bacarır. Lakin onun karyerası nə gözlənilən kimi davam etdi, nə də istənilən şəkildə bitdi.

## Hər şeydən imtina etdi, içkidən başqa

Qazandığı uğurlardan və məşhurluqdan sonra həyatını istədiyi kimi yaşamağı üstün tutan “Belfast uşağı” artıq 27 yaşına kimi iki dəfə karyerasını bitirmək qərarı almışdı. 60-cı illərdə Mançesterdə iki fərqli gecə klubu açan futbolçunun həyatındakı problemlər getdikcə artmağa başlayır. 1974-cü ildə, 27 yaşında məşqlərdəki intizamsızlığı və içki səbəbi ilə “Mançester Yunayted”lə yolları ayırır. Sonrakı illərdə “Los Anceles Azteks”də, “Hibernian”da, fərqli vaxtlarda iki dəfə “Fulhem”də və başqa klublarda forma geyinir. Son olaraq, “Bornmut”da çıxış edən Corc 1983-cü ildə, 37 yaşında karyerasını başa vurur. O, istedadını ən yaxşı şəkildə ifadə edən Maradonanın “o, idealımdır”, Pelenin isə “gördüyüm ən yaxşı futbolçudur” dediyi bu dahi, İrlandiya millisinin heyətində keçirdiyi 37 oyunda 9 qola imza atır. “1969-cu



ildə içkidən və qadınlardan imtina etdim. Bu, həyatımın ən pis 20 dəqiqəsi idi” deyən Corc, həyatını və karyerasını imtina edə bilmədiyi vərdişlərinə görə məhv edir - “Həyatımda hər şeydən imtina etdim, içkidən başqa”. O, 1984 və 2004-cü illərdə içkili halda avtomobil idarə etdiyi üçün həbs olunur. 1981-ci ildə isə ABŞ-da futbol oynadığı dövrdə tanımadığı bir qadının çantasından içki almaq üçün pul oğurlayır. Təəssüf ki, həyatının geri qalan hissəsini də alkoqolla mübarizə apararaq keçirir.

## Ömrünün son günlərini alkoqolla mübarizədə keçirdi

İki dəfə evlilik yaşayan futbolçunun hər iki həyat yoldaşı onun tərəfindən döyüldüklərini, şiddətə məruz qaldıqlarını deyiblər. Xüsusilə, 80-ci illərin sonundan adı müxtəlif qalmaqallarda, davalarda hallanan Bestin həyatı belə də davam edir: İçki, dava, həbs...Elə ölüm səbəbi də karyerasından üstün tutduğu içki olur. 2002-ci ildən etibarən müxtəlif müalicələr alan və qaraciyər əməliyyatı keçirən Corc Bestin vəziyyəti 2005-ci ildə yenidən pisləşir.

Müalicə aldığı xəstəxanadan sevdiyi insanlara vida mesajı göndərən dahi futbolçunun son mesajı isə bütün həyatını ifadə edir: “Mənim kimi ölməyin”.

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.